## QARŞIYA ÜÇ ƏSAS MƏQSƏD QOYULUB

# BAKININ DƏRDİNƏ MƏLHƏM OLACAQ LAYİHƏLƏR

2025–2030-cu illəri əhatə edən sənəddə paytaxtın nəqliyyatla bağlı problemlərinin həllinə kompleks baxış əksini tapır.

- Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün Bakıda avtobusların sayının 2 160-dan 2 800-ə çatdırılması planlaşdırılır. Bakıda sərnişindaşımanı yaxşılaşdırmaq üçün elektrik mühərrikli minədək avtobus alınacaq.
- Xırdalan dairəsində təkmilləşdirmə işlərinin aparılması, yol qovşaqlarının və ötürücülərinin tikilməsi, Ziya Bünyadov prospekti istiqamətində yolların genişləndirilməsi, Şamaxı yolundan Xırdalana yeni yolların çəkilməsi də nəzərdə tutulur.



SƏHİFƏ 5-də

‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

1 FEVRAL ŞƏNBƏ 2025 № 04 (4205) Qiyməti - 60 qəpik www.kaspi.az







### QLOBAL NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLMƏK HƏDƏFİ

- Azərbaycan Avrasiya məkanında əsas nəqliyyat qovşağı kimi mövqeyini fəal şəkildə möhkəmləndirir. Bu, beynəlxalq aləmdə böyük təsir gücünə malik aktor olmağımızı da şərtləndirəcək.

SƏHİFƏ 3-də



### YENƏ AFRİKA, YENƏ MAKRON

- Konqo Demokratik Respublikası ilə qonşusu Ruanda arasında gərginlik müharibə həddinə çatıb. Gərginlik iyirmi il əvvəlki qanlı hadisələrin yenidən təkrarlanması təhlükəsini yaradır.

SƏHİFƏ 7-də



### “HELİKOPTER VALİDEYNLƏR”İN “ƏSƏR”İ

- Müasir valideynlər icazə vermirlər ki, məktəbdə kimsə onların uşağına nəsə desin. Məktəbdə müəllimin uşağın tərbiyə prosesinə müdaxilə etmək səlahiyyəti olmayanda da bullinq halları çoxalır.

SƏHİFƏ 12-də

## ANKARA BƏYANNAMƏSİNİN EHTİVA ETDİYİ ƏSAS MƏQAMLAR



# ÜÇTƏRƏFLİ STRATEJİ MƏSLƏHƏTLƏŞMƏLƏR

Ankara Bəyannaməsi Cənubi Qafqazın, Mərkəzi Asiyanın, Yaxın Şərqin qlobal geosiyasət üçün mənzərəsini canlandırır. Əsas məqsəd Azərbaycan, Türkiyə və Özbəkistanın maraqlarının mərkəzləşdirilməsidir.

**NAZİRLƏR BİR ARAYA GƏLDİLƏR**

Yanvarın 29-da Ankarada Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat/ticarət və nəqliyyat nazirlərinin ikinci üçtərəfli görüşü keçirilib. Tədbirdə xarici işlər nazirləri Ceyhun Bayramov, Hakan Fidan və Baxtiyor Saidov iştirak ediblər.

**ORTA DƏHLİZƏ ANKARA DƏSTƏYİ**

Ankara Bəyannaməsi Orta Dəhlizin gələcək trayektoriyasını formalaşdırmaq səylərinin bir hissəsidir. Bu sənəd iqtisadi-ticari təşəbbüslərlə təhlükəsizlik çalarlarını bir portfeldə toplayan sənəddir.

SƏHİFƏ 4-də

## ALMANİYADA TOP-5-Ə DAXİL OLAN

# AZƏRBAYCANLI NEYROCƏRRAH



- O, Almaniyada neyrocərrahiyyə üzrə elmi iş yazan həkimlər arasında TOP-5-ə daxildir. Düşünür ki, lazımı dərəcədə motivasiya, məqsədyönlülük və səmimiyyət varsa, insan istədiyi hər şeyə nail ola bilər. Deyir ki, uğurlu olmaq istəyirsənsə, özünə qarşı səmimi ol, plan qur və həmin planla məqsədinə nail olana qədər get... Müsahibimiz Almaniyada professor adını qazanmış azərbaycanlı Ramazan Cabbarlıdır. O, Almaniyada neyrocərrahiyyənin beyin anevrizmaları sahəsində dünyanın ən böyük məlumat bazalarından birinin (Database) yaradıcısıdır.

SƏHİFƏ 8-9-da



### SÜLH ƏVƏZİNƏ BİNOKL SEÇİMİ

- Aİ-nin “sülh” missiyası gələcəkdə regionda gərginlik katalizatoru rolunu oynaya bilər. Ermənistanın silahlandırılması prosesi göstərir ki, planlar yalnız binoklla Azərbaycan ərazilərinə boylanmaqdan ibarət olmayacaq.

SƏHİFƏ 6-da



### EVLƏRİN QİYMƏTİ ARTMAQDA DAVAM EDƏCƏK

- Mənzil bazarında qiymətlər fantastik həddə çatır. Ekspertlər burada qeyri-adi nəsə olmadığı qənaətindədirlər. Proqnozlar da ürəkaçan deyil. Bahalaşma davam edəcək.

SƏHİFƏ 11-də



### KÖRPÜLƏR, QAĞAYILAR VƏ DUMANLAR ŞƏHƏRİ

- Portuqaliyanın ikinci böyük şəhəri olan Porto Douro çayının üstündəki qranit qayaların üzərində tikilib və heyrətamiz dərəcədə gözəldir. Şəhər özündə klassik görünüşlə müasir atmosferi mükəmməl şəkildə birləşdirir.

SƏHİFƏ 15-də



“Böhranı yaradan Fransa tərəfidir”

SƏHİFƏ 2-də



Süni intellekt strategiyası hazırlanır

SƏHİFƏ 10-da



Bölgələrdə həkim çatışmazlığı

SƏHİFƏ 13-də



İxracda brendləşən məhsulumuz

SƏHİFƏ 14-də



Transfer bazarında durğunluq

SƏHİFƏ 16-da



# Bələdiyyə seçkiləri baş tutdu

Yanvarın 29-da Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, respublika üzrə 1 874 810 nəfər səs verib. Seçici fəallığı 31,45 faiz olub.

Bələdiyyə seçkiləri üzrə səsvermədə ən çox seçici aktivliyi 59 saylı Quba seçki dairəsində qeydə alınıb. Burada seçici fəallığı 38,50 faiz olub. Ən az seçici aktivliyi isə 54 saylı Mingəçevir seçki dairəsinə aiddir. Burada aktivlik göstəricisi 24,45 faizdir.



# Ballıcaya növbəti köç

Ağdamdan yola salınan növbəti köç karvanı Xocalı rayonunun Ballıca kəndinə çatıb. "Report"un verdiyi xəbərə görə, yeni ailələrə mənzillərin açarları təqdim edilib.

Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyini təmsil edən şəxslər iştirak ediblər.

Qeyd edək ki, son köç karvanında 22 ailədən ibarət 94 nəfər yer alıb.

# "Böhranı yaradan Fransa tərəfidir"

Fərid Şəfiyev: "Bu böhranı yaradan Fransa tərəfidir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa ilə daim əlaqələr qurmağa çalışır. Bizim Fransa ilə iqtisadi əlaqələrimiz, eləcə də enerji sahəsində əməkdaşlığımız var. İki ölkə arasında münasibətlərin soyumasına səbəb olan faktorlardan biri də erməni diasporudur".




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Bakıda "Fransa və Ermənistan-Azərbaycan münaqişəsi" mövzusuna həsr olunmuş beynəlxalq tədbir öz işinə başlayıb.

### "SƏBƏBKAR ERMƏNİ DİASPORUDUR"

BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycan-Fransa münasibətlərinin soyumasının səbəbkarı erməni diasporudur. Onun sözlərinə görə, Azərbaycanın bir sıra Avropa ölkələri ilə çox konstruktiv əlaqələri var, amma hazırda Fransa ilə münasibətlərdə böhran yaşanır: "Təbii ki, bu böhranı yaradan Fransa tərəfidir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü olan Fransa ilə daim əlaqələr qurmağa çalışır. Bizim Fransa ilə iqtisadi əlaqələrimiz, eləcə də enerji sahəsində əməkdaşlığımız var. İki ölkə arasında münasibətlərin soyumasına səbəb olan faktorlardan biri də erməni diasporudur".

F.Şəfiyev bildirib ki, Fransa ilə bağlı araşdırmaların davam etdirilməsi, fransız dilinin öyrənilməsi vacibdir: "Son vaxtlar Fransa səfirliyi Azərbaycandan viza müraciətlərinin artdığını açıqlayıb. Bu da normal haldır. Çünki Azərbaycan Fransa mədəniyyətinə qarşı mübarizə aparmır və vətəndaşlarımız da bu ölkənin mədəniyyət nümunələrini görmək istəyə bilər".

### "MAKRONUN GƏLİŞİNDƏN SONRA MÜNASİBƏTLƏR SÜQUTA UĞRADI"

Milli Məclisin deputatı Tural Gəncəliyev bildirib ki, Emmanuel Makron hakimiyyətə gəldikdən sonra Azərbaycan əleyhinə siyasət yürütməyə başlayıb. O qeyd edib ki, tarixən Fransa ilə Azərbaycanın güclü praqmatik və mədəni əlaqələr mövcud olub: "Azərbaycanın əksər məşhur ziyalıları Cümhuriyyət dövründə təhsillərini məhz Fransada alıblar. Əhməd bəy Ağaoğlu kimi ziyalılar öyrəndiklərini gəlib ölkəmizdə tətbiq etmişdilər. Yəni tarixən bizim belə güclü əlaqələrimiz olub. Sovet İttifaqının süqutundan sonra Fransa özünü neytral göstərməyə çalışırdı. Amma görünürdü ki, Ermənistana Fransanın diplomatik dəstəyi var. Fransız siyasətçilərin Ermənistana rəğbəti aşkar görünürdü".

T.Gəncəliyev qeyd edib ki, 2003-cü ildən bəri Fransa-Azərbaycan münasibətləri yeni bir müstəviyə qədəm qoyub: "Azərbaycanın güclənməsi Fransada bəzi dairələri ciddi narahat edirdi. Fransada erməni diasporu onların elitasına birbaşa təsir etmək gücünə malikdir".

Deputat vurğulayıb ki, 2017-ci ildə Makron hakimiyyətə gəldikdən sonra münasibətlər bir növ süquta uğradı: "2020-ci ilə qədər Fransa Ermənistana gizli şəkildə dəstək göstərirdisə, İkinci Qarabağ müharibəsindən sonra Fransa anti-Azərbaycan münasibətini açıq şəkildə nümayiş etdirməyə başladı".



Gil Mixaeli

### "MÜNASİBƏTLƏRİN BƏRPASI ÜÇÜN POTENSİAL VAR"

"Conflicts" jurnalının direktoru Gil Mixaelinin sözlərinə görə, Azərbaycan və Fransa münasibətlərin bərpası üçün potensiala malikdir. Onun qənaətincə, belə bir tədbirin təşkili Azərbaycanın Fransa ilə münasibətləri müzakirə etməyə çalışdığını göstərir. "Mən nəzərdə tuturam ki, Azərbaycan sadəcə "nə etmək olar, bu işləmir, bizim başqa prioritetlərimiz var" deyə bilərdi. Amma bunu etmədi. Tənqidlərə, bəlkə də kədər və ya qəzəbə baxmayaraq, qarşılıqlı maraq yüksək olaraq qalır. Mən hesab edirəm ki, məhz bunun üzərində dialoq qurmaq olar. Fransa və Azərbaycan daha yaxşı vaxtlar da yaşayıb, amma onlar düşmən deyillər", - o qeyd edib.

## BƏZİ QƏRB DÖVLƏTLƏRİNİN AZƏRBAYCANA MÜNASİBƏTİ DƏYİŞİB

Lazur Sahili Universitetinin ictimai hüquq professoru Kristian Vallar deyib ki, bəzi Qərb dövlətlərinin 2020-ci ildən sonra Azərbaycana münasibəti nəzərəçarpacaq dərəcədə dəyişib. Onun sözlərinə görə, bu daha çox özünü ölkənin ərazi bütövlüyünü bərpa etməsinə olan reaksiyada göstərib. K.Vallar bildirib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin qaytarılması faktı rəsmi Paris də daxil olmaqla, bir sıra ölkələrin mənfi reaksiyasına səbəb olub: "Fransa həmişə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyini ifadə edib. 2020-ci ilə qədər Bakı və Paris arasında münasibətlər dinamik və məhsuldar şəkildə inkişaf edib. 2017-ci ildə ilk səfərim zamanı Bakıda fransız diplomatları ilə görüşdüm və onlar iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişaf perspektivlərini qeyd etdilər. Lakin 2020-ci ildən sonra bütün uğurlu proseslər dayandı. Azərbaycan Cənubi Qafqaz regionunda mühüm yer tutur".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# QLOBAL NƏQLİYYAT QOVŞAĞINA ÇEVRİLMƏK HƏDƏFİ

**Azərbaycan Avrasiya məkanında əsas nəqliyyat qovşağı kimi mövqeyini fəal şəkildə möhkəmləndirir. Bu, gələcəkdə ölkəmizin iqtisadi inkişafının əsas istiqamətlərindən biri olmaqla yanaşı, beynəlxalq aləmdə böyük təsir gücünə malik aktor olmağımızı da şərtləndirəcək.**



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az



Azərbaycan son illərdə tranzit imkanlarının genişləndirilməsi, gələcəyi hədəfləyən infrastrukturun yaradılması istiqamətində mühüm addımlar atıb. Pandemiya, Cənubi Qafqazda yaranan yeni reallıqlar, Ukrayna müharibəsi nəticəsində beynəlxalq səviyyədə müşahidə olunan geosiyasi və geoiqtisadi təlatümlər ölkəmizin qlobal əhəmiyyətli tranzit qovşağa çevrilməsi istiqamətində unikal imkanlar yaradıb.

### "NƏQLİYYAT XƏRİTƏSİNİ BİZSİZ TƏSƏVVÜR ETMƏK MÜMKÜN DEYİL"

Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində Bakı bu imkanlardan maksimum dərəcədə yararlanmağı hədəfləyir. Qeyd etdiyimiz amillər nəticəsində dünyanın dəyişən mənzərəsində beynəlxalq iqtisadi inkişafın əsas lokomotivlərinin diqqəti Azərbaycandan keçən alternativ nəqliyyat dəhlizlərinə istiqamətlənib. Bir neçə gün əvvəl Prezident İlham Əliyevin rəhbərliyi ilə nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə üzərinə vurğu edilən məqamlar Azərbaycanın sözügedən sahədə qlobal miqyaslı oyunçuya çevrilmək niyyətindən xəbər verir. Dövlət başçısının da vurğuladığı kimi, "bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil".

Bu gün Azərbaycan Rusiya ilə İran körfəzini birləşdirən Şimal-Cənub, Çindən, Mərkəzi Asiyadan Avropaya quru konteynerlərin çatdırılmasını nəzərdə tutan Transxəzər, Orta dəhlizin əsas arteriyası sayılan Bakı-Tbilisi-Qars kimi meqatranzit layihələrə malikdir. Ölkəmizin qarşısında dayanan başlıca vəzifə məhz bu layihələr çərçivəsində sahib olduğumuz imkanları daha da genişləndirməkdir. Prezident İlham Əliyevin də müvafiq qurumlar qarşısında qoyduğu əsas vəzifələr məhz bunu diktə edir: "Adətən nəqliyyat mərkəzləri statusuna malik olan ölkələr o ölkələrdir ki, onların açıq dənizlərə çıxışı var. Bizim isə dünya okeanlarına çıxışımız yoxdur. Amma buna baxmayaraq, gördüyümüz işlər nəticəsində biz Azərbaycanı əvəzolunmaz nəqliyyat mərkəzlərinin birinə çevirmişik. İşlər davam edir, həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə indi əlavə tədbirlər görülür. Çünki vaxtilə hesablanmış yüklərin həcmi artıq onu göstərir ki, daha böyük həcmdə yüklər keçəcək. Bu, müxtəlif səbəblərə bağlı olan məsələdir. Ancaq fakt odur ki, biz indi bu dəhlizlərin aşırma qabiliyyətini artırmaq üçün əlavə sərmayə cəlb etmişik və edəcəyik".



## STATİSTİK RƏQƏMLƏR NƏ DEYİR?

Statistik məlumatlar da hər bir istiqamət üzrə gələcək proqnozların sürətli artımından xəbər verir. 2024-cü ildə Çin-Mərkəzi Asiya-Azərbaycan marşrutu ilə ümumilikdə 358 blok-qatar göndərilib. 2025-ci ildə Çindən Azərbaycan və Avropa istiqamətində göndərilən blok-qatarların sayının üç dəfədən çox artırılaraq il ərzində 1000-ə çatdırılması planlaşdırılır. Şimal-Cənub dəhlizi ilə isə Azərbaycan ərazisindən tranzit yükdaşımaların həcmi 2024-cü ildə 814 min ton təşkil edib. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 28 faizdən çoxdur.

Orta Dəhliz marşrutunun mühüm hissəsi olan Bakı Limanında ötən il ərzində aşırılan yükün ümumi həcmi 7,6 milyon ton olub ki, bu da 2023-cü ilin müvafiq göstəricisindən 3,2 faiz çoxdur.

Qarşıdakı beş il ərzində İran ilə Azərbaycan arasında tranzit yükdaşımaların həcminin 15 milyon tona çatdırılması barədə iki dövlət arasında razılıq əldə olunub. Özbəkistanın Nəqliyyat Nazirliyi beynəlxalq nəqliyyat marşrutlarının şaxələndirilməsi, o cümlədən Azərbaycan ərazisindən yeni tranzit dəhlizlərinin yaradılması üzərində işləyir. Bu işlər Qazaxıstan tərəfində də sürətlə həyata keçirilir.

### GƏLƏCƏK HƏDƏFLƏR ÜÇÜN ATILACAQ ADDIMLAR

Bəs gələcək hədəflər üçün hansı addımlar atılacaq? Bu məsələnin də detallarını Prezident İlham Əliyev açıqlayıb. Dövlət başçısı bildirib ki, hazırda Ələtdə böyük yük terminalı inşa edilir, onun yük qəbuletmə imkanları bir milyon ton olacaq. Yeni Dəniz Ticarət Limanının birinci fazasının yükaşırma qabiliyyəti 15 milyon ton nəzərdə tutulurdu. Artıq limanın imkanlarının 25 milyon tona çatdırılması hədəfdədir. Artan tələbat fonunda bu da son deyil. Buraya hava limanlarının tikintisinin yekunlaşdırılması, əlavə dəmiryolu və avtomobil yollarının imkanlarının genişləndirilməsi də daxildir. Bütün bu işlərin vahid konsepsiya halında, zamanında icrası da diqqət mərkəzindədir. Dövlət başçısının da qeyd etdiyi kimi, "bütün bu nəqliyyat məsələlərini bir mərkəzdə cəmləşdirmək üçün mənim qərarımla bu yaxınlarda yeni qurum - AZCON qurumu yaradıldı, hansı ki, bütün bu əlaqələndirmə və perspektiv inkişaf planını, o cümlədən sərmayə qoyuluşunu - bütün bu məsələləri nəzərə alacaqdır".

## ZƏNGƏZUR DƏHLİZİ İLƏ BAĞLI MÖVQE DƏYİŞİLMƏZDİR

Təbii ki, Azərbaycanın qlobal tranzit qovşağa çevrilməsi tək iqtisadi yox, həm də siyasi çeviklik tələb edir. Bu məsələdə Zəngəzur dəhlizinin reallaşması və Bakının hədəflərinə qarşı məkrli planların zərərsizləşdirilməsi də mühüm əhəmiyyət daşıyır. Artıq ölkəmizin ikinci istiqamət üzrə zəngin təcrübəsi də var. Dövlət başçısının müşavirədə Bakı-Tbilisi-Qars layihəsinin ilkin vaxtlarında üzləşdiyimiz çətinliklərlə bağlı səsləndirdiyi fikirlər buna misaldır. Zəngəzur dəhlizinə gəldikdə isə, rəsmi Bakının mövqeyi dəyişməz olaraq



qalır. Ermənistanın qeyri-konstruktivliyi səbəbindən açılışı hələ də reallaşmayan bu dəhlizlə bağlı Azərbaycan müvafiq addımlar atmaqdadır. Artıq İran üzərindən alternativ istiqamət müəyyənləşdirilib və tərəflərin razılığı əsasında körpülərin, yolların inşası prosesi sürətlə davam edir. Yəni, Azərbaycan qarşısında Ermənistan əngəli dövlətimizin ali rəhbərliyinin uzaqgörən və qətiyyətli siyasəti nəticəsində heç bir əhəmiyyət daşımır.

Beləliklə, Azərbaycan Avrasiya məkanında əsas nəqliyyat qovşağı kimi mövqeyini fəal şəkildə möhkəmləndirir. Bu, gələcəkdə ölkəmizin iqtisadi inkişafının əsas istiqamətlərindən biri olmaqla yanaşı, beynəlxalq aləmdə böyük təsir gücünə malik aktor olmağımızı da şərtləndirəcək.

# ÜÇTƏRƏFLİ STRATEJİ MƏSLƏHƏTLƏŞMƏLƏR

Ankara Bəyannaməsi Cənubi Qafqazın, Mərkəzi Asiyanın, Yaxın Şərqin qlobal geosiyasət üçün mənzərəsini canlandırır. Əsas məqsəd Türk Dövlətləri Təşkilatı, o cümlədən Azərbaycan, Türkiyə və Özbəkistanın maraqlarının mərkəzləşdirilməsidir.



AQŞİN KƏRİMOV

Yanvarın 29-da Ankarada Azərbaycan-Türkiyə-Özbəkistan xarici işlər, iqtisadiyyat/ticarət və nəqliyyat nazirlərinin ikinci üçtərəfli görüşü keçirilib. Tədbirdə xarici işlər nazirləri Ceyhun Bayramov, Hakan Fidan və Baxtiyor Saidov iştirak ediblər.

### TƏRƏFLƏRİN HƏDƏFLƏRİ

Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, sanksiyalar səbəbilə yaranan enerji böhranı enerji ilə zəngin olan Mərkəzi Asiya və Qafqazın geosiyasi önəmini artırıb. Onun sözlərinə görə, bu formatdakı görüşlər Türküstan, Qafqaz və Anadolunun iqtisadi, nəqliyyat və enerji əlaqələrini gücləndirmək üçün layihələrin həyata keçirilməsi baxımından önəmli platformadır.

Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov deyib ki, yaxın gələcəkdə Azərbaycan, Türkiyə, Özbəkistan üçün ticarət həcmini iki dəfə artırmaq imkanı var: "Biz uzaq və yaxın coğrafiyada strateji tərəfdaşlarımızla əməkdaşlığı dərinləşdirməkdə qərarlıyıq. Özbəkistan üçtərəfli əməkdaşlıqdan faydalanaraq yeni fürsətlər yaratmağın tərəfdarıdır".

Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Türkiyə və Özbəkistandan olan həmkarlarını işğaldan azad edilmiş ərazilərdəki son yeniliklər barədə məlumatlandırıb. C.Bayramov qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası daha geniş coğrafiyada əməkdaşlığa imkanlar yaradır: "Qarabağ regionu vasitəsilə Şərq-Qərb, Orta Dəhlizin yeni arteriyasının salınması hazırda həyata keçirilir və bunun böyük perspektivini görürük".



## ANKARA BƏYANNAMƏSİNİN EHTİVA ETDİYİ MƏQAMLAR

Qeyd edək ki, görüşün nəticəsində Ankara Bəyannaməsi imzalanıb. Azərbaycan Xarici İşlər Nazirliyi Ankara Bəyannaməsinin ehtiva etdiyi məqamları açıqlayıb. Bəyannamədə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, habelə suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı birgə fəaliyyətə dəstək ifadə olunub. İqtisadiyyat, ticarət, investisiyalar, logistika, infrastruktur, rəqəmsallaşma, ətraf mühit və iqlim dəyişikliyi ilə mübarizə istiqamətləri üzrə mövcud potensialdan tam istifadə olunması, bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın, xüsusilə Orta Dəhlizin səmərəliliyi və rəqabətədavamlılığının artırılmasının vacibliyi qeyd olunub.

Bəyannamədə, həmçinin Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgələrində yenidənqurma və humanitar minatəmizləmə fəaliyyətinə töhfə verilməsinin əhəmiyyəti vurğulanıb.

Mərkəzi Asiyanın təhlükəsizliyində vacib rol oynayan Əfqanıstanın təhlükəsizliyi və inkişafı ilə bağlı Türk Dövlətləri Təşkilatı çərçivəsində ortaq mövqenin formalaşdırılmasının, Qəzza bölgəsində əldə olunmuş atəşkəsin qorunub saxlanılmasının və İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" əsasında həllini tapmasının vacibliyi qeyd olunub.

### ANKARA BƏYANNAMƏSİNDƏKİ STRATEGİYA

Göründüyü kimi, Ankara Bəyannaməsi Cənubi Qafqazın, Mərkəzi Asiyanın, Yaxın Şərqin, Əfqanıstanın qlobal geosiyasət üçün mənzərəsini canlandırır. Proseslərin kilid nöqtəsi Ankara Bəyannaməsinin fonunda Türk Dövlətləri Təşkilatı, o cümlədən Azərbaycan, Türkiyə və Özbəkistanın maraqlarının mərkəzləşdirilməsi ilə formalaşır. Aydındır ki, TDT zəngin təbii sərvətlərin cəmləşdiyi bir coğrafiya olmaqla yanaşı, Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün mühüm logistik mərkəzi rolunu ifa edir. Həmin təşəbbüsün ən əhəmiyyətli qanadı olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) iqtisadi-ticari arteriya olmaqla bərabər, geostrateji vitrinlərə malikdir. Bu, Çindən Avropaya qədər uzanan Orta Dəhlizin geosiyasi əhəmiyyətinə TDT-nin, xüsusilə də Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın maraqlarını transformasiya edir.



## TDT-NİN MÖVQELƏRİ MÖHKƏMLƏNİR

Dəhliz boyu ticarətin artması tranzit ölkələrdə sənaye artımını, iş yerlərinin yaradılmasını və infrastrukturun inkişafını stimullaşdırır. Bununla da regional iqtisadiyyatlar güclənir və qlobal təchizat zəncirində TDT-nin mövqeləri möhkəmlənir. Ankara Bəyannaməsi sürətlə genişlənən Orta Dəhlizə davamlı investisiyanı təşviq etməklə bərabər ortaya çıxan təhlükəsizlik çağırışlarını da qiymətləndirir. Sənəddə ərazi və suverenlik prinsiplərinə qarşı təhdidlərin dəf edilməsi prioritet kimi vurğulanır. Bəyannamə dəyişən beynəlxalq geosiyasət əsasında Rusiyadan, Süveyş kanalından yan keçən Orta Dəhlizi alternativ ticarət marşrutu kimi yüksək qiymətləndirərkən problemlərin birgə həllini də qarşıya məqsəd qoyur.

### "ZƏNGƏZUR"UN ORTA DƏHLİZDƏ GÖRÜNÜŞÜ

Təbii ki, Orta Dəhlizin inkişafı qlobal ticarət şəbəkələrini yenidən formalaşdırdığı üçün əlavə geosiyasi gərginliklərin önə çıxacağı ehtimalları da yaranır. Bu, Mərkəzi Asiyada konflikt ocaqlarından tutmuş, Cənubi Qafqazdakı "barıt çəlləkləri"nin partladılması cəhdlərinə qədər geniş diapozunu həssaslaşdıra bilər. Belə geosiyasi qeyri-müəyyənliklərə Azərbaycan-Ermənistan sülh gündəliyinin axsaması fonunda daha bir mürəkkəb qat əlavə edilir. Dəhliz marşrutlarından kənarda qalan Ermənistan Azərbaycanın əlinin bərkidiyi layihələri sabotaj etməkdə maraqlı tərəf kimi çıxış edə bilər. Şübhəsiz ki, bu, Ermənistanın öz iradəsinin məhsulu deyil, çünki İrəvanda nəhəng beynəlxalq layihələrə qarşı davam gətirmək potensialı yoxdur. Lakin Ermənistan onu himayə edən qüvvələrin, əsasən, Fransa, ABŞ və Hindistanın təlimatları ilə Orta Dəhlizdə tranzit rol oynayan Azərbaycanın maraqlarına qarşı yönələn proseslərdə maraqlıdır. Bunun qarşısının alınması üçün optimal yollardan ən effektivi Zəngəzur dəhlizinə diqqəti artırmaqdır.

Ankara Bəyannaməsi Orta Dəhlizin gələcək trayektoriyasını formalaşdırmaq səylərinin bir hissəsidir. Bu sənəd iqtisadi-ticari təşəbbüslərlə təhlükəsizlik çalarlarını bir portfeldə toplayan sənəddir.

# BAKININ DƏRDİNƏ MƏLHƏM OLACAQ LAYİHƏLƏR

"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Sənəddə paytaxtın nəqliyyatla bağlı problemlərinin həllinə kompleks baxış əksini tapır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Məsələnin aktuallığı və yeni proqramın miqyasının böyüklüyü nəzərə alınaraq, Prezident İlham Əliyevin yanında məhz bu məsələlərə həsr olunan müşavirə də keçirilib. Dövlət başçısı bildirib ki, Bakı şəhərinin və onun ətrafında yerləşən ərazilərin nəqliyyat infrastrukturunun inkişafına ehtiyac var. Onun sözlərinə görə, son illər ərzində bu istiqamətdə bir çox işlər görülməsinə baxmayaraq, yenə də Bakı şəhərində tıxac müşahidə olunur, onların sayı ildən-ilə artır.

Bəs yeni dövlət proqramında nələr nəzərdə tutulur?

### QARŞIYA ÜÇ ƏSAS MƏQSƏD QOYULUB

Yeni proqram tamamilə vətəndaşa yönəlikdir. Burada qarşıya üç əsas məqsəd qoyulub: daha sürətli, daha təhlükəsiz, daha ekoloji mobillik imkanlarının yaradılması. Bu məqsədlərə nail olunması üçün alt məqsədlər də müəyyənləşdirilib. Söhbət ictimai nəqliyyatdan istifadənin genişləndirilməsindən, əlavə və yeni mobillik imkanlarının yaradılmasından, piyadaların hərəkətinin, eləcə də mikromobilliyin genişləndirilməsindən gedir. Eyni zamanda, sərnişin təcrübəsinin tamamilə rəqəmsallaşdırılması və bəzi sistemli dəyişikliklərin də həyata keçirilməsi nəzərdə tutulub.

### AVTOBUSLARIN SAYI 2 800-Ə ÇATDIRILACAQ

Qarşıya qoyulmuş hədəflərə çatmaq üçün Bakıda avtobusların sayının 2 160-dan 2 800-ə çatdırılması planlaşdırılır. Bakıda sərnişindaşımanı yaxşılaşdırmaq üçün elektrik mühərrikli minədək avtobus alınacaq. Piyada hərəkətinin təşviq edilməsi üçün səki infrastrukturu ilə bağlı beynəlxalq standartlara uyğun bir pilot layihənin həyata keçirilməsi nəzərdə tutulur. Hazırda ay ərzində Bakı şəhərində velosiped və skuterlərlə 200 min səfər həyata keçirilir. Bu səfərlərin sayının iki milyon yarıma çatdırılması da hədəflər sırasındadır.

Dəmir yolu infrastrukturuna gəldikdə isə, Abşeron dairəvi yoluna qatarların əlavə edilməsi, yük qatarlarının dairəvi yola daxil olmasının qarşısının alınması üçün Güzdək-Qaradağ dəmir yolunun istifadəyə verilməsi nəzərdə tutulub. Həmçinin mövcud olan, lakin köhnəlmiş və istifadədən çıxarılmış bəzi dəmir yollarının da istifadəyə qaytarılması qərara alınıb. Bunlar "Zabrat 2-Maştağa-Bağlar-Albalı", "Bakıxanov-Binə-Qala-Yeni Suraxanı-Hövsan" istiqamətləridir. Növbəti mərhələdə Yeni Suraxanıdan Heydər Əliyev Beynəlxalq Aeroportuna dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulub.

Mehdiabad və "Sea Breeze" istiqamətində tramvay xətlərinin tətbiq olunması da planda yer alıb.

## 10 YENİ STANSİYA TİKİLƏCƏK





Bundan əlavə, 10 yeni metro stansiyasının tikilməsi də planlaşdırılır. "Bənövşəyi xətt"in uzadılması "Avtovağzal" və "Xocasən" stansiyalarının istifadəsini genişləndirəcək ki, bu da "20 Yanvar" dairəsinə təzyiqi ciddi şəkildə azaldacaq. Bu layihələrin icrası nəticəsində il ərzində metro ilə daha 88 milyon sərnişin daşınması nəzərdə tutulub. Ümumilikdə metro üçün 299 yeni vaqon alınacaq.

Həmçinin Xırdalan dairəsində təkmilləşdirmə işlərinin aparılması, yol qovşaqlarının və ötürücülərinin tikilməsi, Ziya Bünyadov prospekti istiqamətində yolların genişləndirilməsi, Şamaxı yolundan Xırdalan şəhərinə yeni yolların çəkilməsi də nəzərdə tutulur.



### "NƏZƏRDƏ TUTULAN İŞLƏRİN GÖRÜLMƏSİ REALDIR"

Nəqliyyat eksperti Eldəniz Cəfərovun sözlərinə görə, dövlət proqramında nəzərdə tutulan yeniliklərin gətirəcəyi müsbət nəticələri ən qısa zamanda görəcəyik: "Əsas məqsəd yol-nəqliyyat infrastrukturunun optimallaşdırılması, genişləndirilməsi və inkişaf etdirilməsidir. Burada iki istiqamət var. Biri yol infrastrukturu ilə bağlıdır. Yol infrastrukturunun genişləndirilməsi, yeni yolların çəkilməsi, "butulka" effekti yaradıb tıxaca səbəb olan boğazların sökülməsi, yeni yol ötürücülərinin, körpü və tunellərin tikilməsi nəzərdə tutulub. Bu yolların tikilməsi ilə paralel olaraq, ictimai nəqliyyat da şaxələnəcək və inkişaf etdiriləcək. Yeni avtobus və dəmir yolu marşrutları təşkil olunacaq. Yeni dəmir yolu ilə vətəndaşların Bakı və ətraf ərazilərə səfərləri rahatlaşacaq. Tramvay xətlərinin də çəkilməsi plandadır. Ümid edirəm ki, onlar rentabelli ərazilərdən keçəcək. Yeni metro depoları və stansiyalar da tikiləcək. Hansı ki, buna ehtiyac var idi. Metroda qatarlararası intervalların azalmasına da ehtiyac var. Bunun üçün depolar və stansiyalar artırılmalıdır. Bakı-Sumqayıt istiqamətində hərəkəti sərbəstləşdirmək üçün müəyyən addımlar atılacaq. Xırdalan və Sumqayıt istiqamətinə bir neçə alternativ yol, körpü, tunel, yol ötürücüləri çəkiləcək. Mövcud olan yollar diferensiallaşdırılacaq. Nəzərdə tutulan işlərin görülməsi realdır. Cəmi bir neçə il ərzində bu yenilikləri görmək mümkün olacaq".





Eldəniz Cəfərov

Fotolar: Global Photostock

# SÜLH ƏVƏZİNƏ BİNOKL SEÇİMİ



**Avropa İttifaqının “sülh” missiyası gələcəkdə regionda gərginlik katalizatoru rolunu oynaya bilər. Ermənistanın silahlandırılması prosesinə “Sülh fondu”nun da cəlb olunması göstərir ki, missiyanın qarşıdakı illər üçün planları yalnız binoklla Azərbaycan ərazilərinə boylanmaqdan ibarət olmayacaq.**



RÜSTƏM QARAXANLI

Ötən həftə Avropa İttifaqı (Aİ) Şurası gözlənildiyi kimi Ermənistanda “müşahidə” missiyasının mandatının daha iki il müddətinə uzadılması barədə qərar qəbul etdi. Qurum üzvlərinin səfirlərinin Brüsseldə əldə etdikləri razılığa əsasən, 44 milyon avroluq rəsmi büdcəsi olacaq missiya 2027-ci ilin 19 fevralına qədər Ermənistan ərazisində, Azərbaycanla şərti sərhədə yaxın yaşayış məntəqələrində “keşik” çəkəcək.

Ermənistana belə bir missiyanın göndərilməsi barədə qərar 2022-ci ilin payızında qəbul edilib. Əvvəl “müşahidəçilər”in Ermənistana iki aylığa cəmi 40 nəfərlik heyətlə gəlmələri anons edilsə də, sonrakı dövrdə tərkib və say yenilənməyə məruz qalıb. Avropalı müşahidəçilərə ABŞ-nin ştatına çevrilmək təhlükəsi ilə üz-üzə qalan uzaq Kanadanın da təmsilçiləri qoşulub. Say isə təqribən dörd dəfə artıb.

### MÜŞAHİDƏ, YOXSA HƏRBİ BAZA?

Aİ heyətinin mandatının kifayət qədər ciddi büdcə ilə iki illik müddətə uzadılması “müşahidəçi” missiyanın səlahiyyət və funksiya çərçivələrini aşdığı təəssüratı yaradır. Keçmiş hərbçilər və xüsusi xidmət orqanlarının əməkdaşlarından ibarət heyət mülki “müşahidə” missiyası kimi qələmə verilsə də, Aİ-nin əsas diktə edən üzvü - Fransanın Ermənistanı aktiv şəkildə silahlandırması, ordu quruculuğunda iştirak etməsi və bütün bunların fonunda İrəvanın Bakı ilə sülhə gəlmə cəbalarını bloklaması əsas hədəfin bölgədəki sabitlik olduğunu deməyə əsas verir.

Makron Fransasının əlində geosiyasi təzyiq alətinə çevrilmiş təşkilatın Azərbaycanın təhlükəsizliyinə birbaşa təhdid olan fəaliyyətini sülh kontekstində şərh etmək mümkün deyil. Nəzərə alsaq ki, son dörd il ərzində Brüsselin atdığı bir sıra addımlar barədə qərarlar tam məxfilik şəraitində qəbul edilib, qarşıdakı iki il ərzində Aİ yalnız missiyanın mandatının müddətini uzatmaqla kifayətlənməyə də bilər. 2022-ci ilin payızında olduğu kimi.



## Planlar yalnız binoklla Azərbaycan ərazilərinə boylanmaq deyil

Aİ kimi rəsmi Paris də regiondakı siyasətinin reallaşdırılmasında eyni taktikadan yararlanır. İrəvanla hərbi təmaslar ilkin müddətdə yalnız Ermənistanın müdafiə qabiliyyətinin artırılmasına yönəlik tədbir kimi qələmə verilirdi. Ortaya silah ixracı çıxanda isə bildirildi ki, bu, istisnasız olaraq müdafiə xarakterli silahlanma olacaq. Hazırda isə gündəmin əsas mövzusu Makron Fransasının Ermənistanı uzaqmənzilli artilleriya sistemləri ilə təmin etməsidir.

Bu baxımdan istisna edilməməlidir ki, Aİ-nin “sülh” missiyası gələcəkdə tam əsaslı hərbi bazaya transformasiya oluna bilər. Düzdür, təşkilatın belə bir təcrübəsi yoxdur. Ancaq indiyədək qurum heç Ermənistanda “keşik” çəkən missiya kimi təşəbbüslərə də müəlliflik etməmişdi. Ermənistanın silahlandırılması prosesinə “Sülh fondu”nun da cəlb olunması göstərir ki, missiyanın qarşıdakı illər üçün planları yalnız binoklla Azərbaycan ərazilərinə boylanmaqdan ibarət olmayacaq.





## Qərbin “saman çöpü”

Qeyri-adekvat tərəfkeşliyi ilə sülh prosesindən və regional layihələrdən kənar düşən kollektiv Qərbin hazırda qarşısında duran əsas vəzifələrdən biri də nəyin hesabına olursa-olsun Cənubi Qafqazda qalmaqdır. Müstəqil xarici siyasət yürüdən, suverenliyi və ərazi bütövlüyünü bərpa edən Azərbaycandan sonra qonşu Gürcüstan da Brüsselin, daha doğrusu, Parisin geosiyasi ekspansiya cəhdləri qarşısında maneəyə çevrilib. Gürcüstanın Qərbin həmlələrini bloklaması Aİ-nin faktiki olaraq bölgəyə daxil olma çabaları qarşısında sipər rolunda çıxış edir. Qərb Cənubi Qafqaza daxil olmaq üçün bütün yolları əldən verib. Öz səhvlərinin ucbatından. Türkiyəyə qarşı illərdir davam edən qərəzli münasibət, Gürcüstanda dövlət çevrilişi cəhdlərinə sponsorluq, Ukraynada mövqe itkiləri Qərbin manevr imkanlarını maksimum daraldıb. Bu baxımdan, hazırda Ermənistan başda Fransa olmaqla, Aİ üçün yeganə “saman çöpü” funksiyasını həyata keçirir.

Brüssel Ermənistan ərazisində möhkəmlənməklə yalnız regional mövcudluğu barədə düşünmür, eyni zamanda, burada baş verən proseslərin nəbzini tutmağa çalışır. Azərbaycanın torpaq bütünlüyünü təmin etməsi 30 illik işğala son qoymaqla yanaşı, regiondakı digər münaqişə ocaqlarının da müsbət ssenari ilə çözümünə ümidlər yaradıb. Bu gün Cənubi Qafqazın gündəmi hərb deyil, sülhdür. Sabit və dayanıqlı sülh iqtisadi çiçəklənməyə yol aça bilər. Bölgədə həyata keçirilən qlobal layihələr, ən əsası isə logistik marşrutlar hər üç dövlətin rifah halının yüksəlməsinə xidmət edər. Təəssüf ki, Ermənistanda bunu ya dərk edə bilmirlər, ya da dərk edirlər, ancaq əl-qolları bağlıdır. Regional kommunikasiyaların tam açılması Azərbaycana əlavə imkanlar yaratdığı halda, Ermənistan üçün iqtisadi nəfəslik rolunu oynaya bilər. İrəvanda bunu başa düşürlər, ancaq güman ki, Qərb tərəfdaşlarının təzyiqləri fonunda qətiyyətli addım atmaqdan çəkinirlər. Bu nöqteyi-nəzərdən istisna etmək olmaz ki, “sülh” missiyasının qarşısına qoyulan daha bir vəzifə regional logistik marşrutlar üzərində nəzarətə nail olmaqdır. Beləliklə, nə qədər ki, Aİ “müşahidəçilər”i Ermənistandadır, etibarlı sülhdən danışmaq əbəsdir. Çünki sözügedən missiyanın gündəmi gərginlik, hərb və qeyri-sabitlikdir.

# YENƏ AFRİKA, YENƏ MAKRON










Konqo Demokratik Respublikası ilə qonşusu Ruanda arasında gərginlik müharibə həddinə çatıb. Gərginlik iyirmi il əvvəlki qanlı hadisələrin yenidən təkrarlanması təhlükəsini yaradır.



AZƏR NURİYEV

Afrikanın təbii sərvətlərini əldən buraxmaq istəməyən keçmiş müstəmləkə dövlətləri hər vəchlə qitəni nəzarət altında saxlamağa çalışırlar. Mövqelərin itiriləcəyindən ehtiyat edən qüvvələr indi hər yola əl atır, hərbi əməliyyatlara belə gedirlər.

Məsələn, bölgənin ən narahat ölkəsi Konqo Demokratik Respublikası (KDR) ilə qonşusu Ruanda arasında gərginlik müharibə həddinə çatıb. KDR hökuməti ölkənin "müharibə vəziyyətində olduğunu" bəyan edib. Bu, "23 Mart Hərəkatı" (M23) qruplaşmasının ölkənin şərqində Şimali Kivu əyalətinin inzibati mərkəzi, təxminən 300 min əhalisi olan böyük Qoma şəhərini nəzarətə götürdüyünü elan etməsindən sonra baş verib. Qruplaşmanın şəhərə hücumundan əvvəl Konqo hərbçilərinə ultimatum verilmişdi. Onlardan 48 saat ərzində silahı yerə qoymaq tələb olunurdu. KDR hakimiyyətinin iddiasına görə, qruplaşma birbaşa Ruandadan dəstəklənir və onunla birgə bu ölkənin nizami ordusu döyüşür. Ruanda hakimiyyəti isə iddiaları rədd edir. Xatırladırlar ki, KDR-də təxminən yüz silahlı qruplaşma fəaliyyət göstərir və ölkə hakimiyyəti bir sıra rayonlarda vəziyyətə çox zəif nəzarət edə bilir.

### QƏRB ÖLKƏLƏRİNİN SƏFİRLİKLƏRİNƏ HÜCUM

İndi hər kəs "Böyük Afrika müharibəsi"ndən danışır, prosesə bir çox dövlətin qoşula biləcəyini bəyan edir. Qeyd etdiyimiz kimi, Konqoda hakimiyyətə qarşı çıxan qüvvələrə Ruanda dəstək verir. Bu ölkəni isə Fransa özündən asılı vəziyyətə salıb. Afrikadakı digər müstəmləkələrindən qovulan Fransa indi Ruanda vasitəsilə mövqelərini bərpa etməyə çalışır. Bu məqsədlə Ruandada yerli tayfalar Konqoya qarşı qaldırılır. BMT Təhlükəsizlik Şurası da Konqo Demokratik Respublikasındakı vəziyyəti müzakirə etmək üçün toplantı keçirib. Böyük Britaniyanın xarici işlər naziri David Lemmi Ruanda Prezidenti Pol Kaqame ilə telefon danışığında Ruanda ilə KDR arasındakı sərhəddə gərginliyin azaldılmasına nail olunmasının zəruriliyini bəyan edib.

Konqonun paytaxtı Kinşasada ABŞ səfirliyi, bir neçə diplomatik nümayəndəliyə hücum edilib. Basqınçılar Ruanda, Fransa, Belçika, Uqanda və Keniya səfirliklərini hədəfə alıblar.

## KONQO BÖYÜK QARŞIDURMANIN ASTANASINDA

Görünən odur ki, iyirmi il əvvəl ən qanlı silahlı münaqişənin (Böyük Afrika və ya İkinci Konqo müharibəsi kimi tanınan) mərkəzində olan KDR yenidən böyük müharibənin astanasındadır. Ölkə mərkəzi Konqo hökumətinə qarşı uğurlu döyüşlər aparan tutsi xalqının üsyançı qruplaşmalarını dəstəkləyən qonşu Ruanda ilə diplomatik əlaqələrini kəsib. İki ölkənin tezliklə birbaşa müharibə aparması ehtimalı da var. 1990-cı illərdə Ruandada yerli hutu etnik qrupunun digər etnik qrup olan tutsilərə qarşı törətdiyi soyqırımı hər kəsin yadındadır. Bu müharibə sonradan hutu və tutsi qarşıdurmasının qonşu KDR-ə yayılması və qitənin bir çox dövlətinin bu münaqişəyə cəlb olunması səbəbindən alovlandı. İndi həmin hadisələrin təkrarlanması ehtimalı var.

### "RUANDA QOŞUNLARI ƏRAZİMİZƏ DAXİL OLUB"

"Mən sizin qarşınızda dayanarkən bütün dünyanın gözü qarşısında görünməmiş bir hücum gedir. Ruanda qoşunları ərazimizə daxil olub və bu, suverenliyimizin pozulmasıdır. Bu, təcavüzdür, bu, müharibə elanıdır", - deyə KDR xarici işlər naziri Teresa Kayivamba BMT Təhlükəsizlik Şurasının iclasında deyib. Nazir vurğulayıb ki, Ruandanın hərəkətləri beynəlxalq hüquqa açıq çağırışdır və regional sabitliyə təhlükə yaradır. O, Təhlükəsizlik Şurasının üzvlərindən hərbi əməliyyatların dayandırılmasını, Ruanda qoşunlarının ölkə ərazisindən çıxarılmasını və qonşu ölkəyə qarşı sanksiyaların tətbiqini istəyib.

KDR Prezidenti Feliks Çisekedi isə ruandalı həmkarı Pol Kaqameni təbii ehtiyatlarla zəngin əyaləti ələ keçirmək məqsədi daşıyan diqqətlə hazırlanmış təcavüzdə ittiham edib. Dekabrda ABŞ-nin səyləri nəticəsində onlar arasında danışıqlar keçirilməli idi. Lakin Kaqame bundan imtina edib. Eyni zamanda, Ruanda lideri heç vaxt ölkəsinin üsyançıları dəstəklədiyini etiraf etməyib.

### FRANSA QARŞIDURMANI QIZIŞDIRIR

Qeyd edək ki, bəşər tarixinin ən böyük soyqırımlarından biri sayılan və 800 min insanın həlak olduğu 1994-cü il Ruanda soyqırımında Fransanın rolu olduğu üzə çıxıb. Ruanda soyqırımından bir qədər əvvəl bölgədəki fransız əsgərlərinin aldıqları kəşfiyyat məlumatlarını dəyərləndirmədiyi və bölgəni tərk etdiyi, bəzi fransız əsgərlərinin isə qətliamları şəxsən dəstəklədiyi beynəlxalq hesabatlarda əksini tapıb.

Bu gün - XXI əsrdə Fransa yenə də öz imperialist niyyətindən əl çəkməyib. Çünki onlar Afrika xalqlarının əlindən alınan sərvətlər hesabına ayaqda qalırlar. Ruanda və Konqo da bu sıradadır. Son hadisələrdə də Fransanın əlinin olduğu istisna deyil. Bu mənada Fransa prezidenti Emmanuel Makronun ilin əvvəli fransız səfirlər qarşısında söylədiyi fikirlər xatırlatmaq yerinə düşərdi. Makron sözügedən görüşdə itaətsizlik nümayiş etdirən Afrika dövlətlərinin rəhbərlərini hədələmişdi. Qeyd etmişdi ki, Fransa 2013-cü ildən Afrikada terrora qarşı silahlı müdaxilə edib, amma region dövlətlərinin rəhbərləri Parisə "sağ ol" deməyi unudublar.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az



“SON 20 İL ƏRZİNDƏ ALMANİYADA İŞLƏMƏK ÜÇÜN MƏNƏ ƏN AZI 100 AZƏRBAYCANLI HƏKİM MÜRACİƏT EDİB”

# ALMANİYADA TOP-5-Ə DAXİL OLAN AZƏRBAYCANLI NEYROCƏRRAH



SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

> **Ramazan Cabbarlı:** “Bu gün insanları epilepsiyadan, depressiyadan müalicə edirik. İnsanlar var ki, ağrı sindromları çox kəskindir, heç bir dərman təsir etmir. Bunu da stimulyasiya ilə müalicə edirik. Əgər fantastika gözləyiriksə, düşünürəm ki, yaxın 20 il ərzində görmə məhdudiyyəti olan insanların stimulyatorun köməyi ilə görmə qabiliyyətlərini bərpa edə bilərik”.

O, Almaniyada neyrocərrahiyyə üzrə elmi iş yazan həkimlər arasında TOP-5-ə daxildir. Düşünür ki, lazımi dərəcədə motivasiya, məqsədyönlülük və səmimiyyət varsa, insan istədiyi hər şeyə nail ola bilər. Deyir ki, uğurlu olmaq istəyirsənsə, özünə qarşı səmimi ol, plan qur və həmin planla məqsədinə nail olana qədər get...

Müsahibimiz Almaniyada professor adını qazanmış azərbaycanlı Ramazan Cabbarlıdır. O, Almaniyada neyrocərrahiyyənin beyin anevrizmaları sahəsində dünyanın ən böyük məlumat bazalarından birinin (Database) yaradıcısıdır.

Bakıda anadan olub. Orta təhsilini fərqlənmə ilə bitirdikdən sonra Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. 2003-cü ildən Respublika Neyrocərrahiyyə Mərkəzində həkim kimi fəaliyyətə başlayıb. Kliniki və elmi fəaliyyətlə məşğul olub. Həmin dövrdə elmi işi ilə həkimlərə ildə bir dəfə verilən təqaüdü qazanaraq Almaniyaya yola düşüb. Almaniyanın cənubunda yerləşən ən qədim universitetlərdən sayılan Freiburgda elmi fəaliyyətinə başlayıb, neyrocərrah kimi işləyib. Müsahibimizin planladığı bir illik Almaniya macərası artıq 20 ildir ki, davam edir. Hazırda Almaniyanın Essen Universitet klinikasında şöbə müdiri, Duis-burg-Essen Univer-sitetinin neyrocərrahiyə kafedrasının müəllimi kimi çalışır.

Həmyerlimizin 230-dan çox elmi məqaləsi “Lancet”, “Neurology”, “Stroke”, “European Journal of Cancer”, “European Journal of Neurology”, “Cancers”, “Journal of Neurosurgery” jurnallarında dərc olunub.

## PEŞƏNİ İCRA ETMƏK İSTƏYİRSƏNSƏ...

**● Ramazan bəy, sizcə, elmi rəhbəriniz hansı keyfiyyətlərinizə görə sizə Almaniyada qalmağı təklif etdi?**

● 2005-ci ildə Almaniyaya gələndə planım o idi ki, bir ildən sonra vətənə qayıdacağam. Almaniyaya gəlmək məqsədim elmi iş idi. Adətən həkimlər burada uzmanlıq proqramı ilə məşğul olurlar. Bu proqram çox intensivdir. Həftənin beş günü və əlavə növbələrdə qalanda təkcə kliniki fəaliyyətin sənin o qədər enerjini alır ki, başqa işlərə taqətin qalmır. Mən isə bir il ərzində həm elmi, həm də kliniki işlə məşğul oldum. Həkimlərlə birlikdə səhər saat yeddidə klinikada olurdum, axşam səkkizdə çıxırdım. Evə getmirdim, bilirdim ki, evə getsəm, bir il ərzində elmi işimi bitirə bilməyəcəyəm. Bu səbəbdən klinikadan çıxıb laboratoriyaya gedirdim. Gecə saat 12-yə qədər də orada çalışır, səhər beşdə yenidən klinikaya gedirdim. Həftəsonlarımı isə səhərdən axşama qədər elmi işə sərf edirdim. İşləməkdən yorulmurdum. Almaniyada hansısa eksperimental işlə məşğul olduqda, həkimlər kliniki fəaliyyətə ara verirlər və dövlət tərəfindən də maaşları ödənilir. Ona görə alman həkimləri adətən ya kliniki iş görürlər, ya da elmi-eksperimental. Mən isə bu iki fəaliyyətlə yanaşı, alman dilini də mükəmməlləşdirməli idim ki, alman həkimlərindən geri qalmayım. Direktorum bu zəhmətimi gördü və getməyə hazırlaşanda dedi ki, sənə tam işləməyə şərait yaradır, burada qalmağı təklif edirəm.

**● Siz həm də dörd dil bilirsiniz. Adətən, həkimlər düşünürlər ki, tibbin dili standart olduğu üçün əlavə dil öyrənməyə ehtiyac yoxdur.**

● Hər hansı ölkədə işləməyin ən vacib şərtlərindən biri həmin ölkənin dilini bilməkdir. 20 il ərzində burada işləmək üçün mənə ən azı 100 azərbaycanlı həkim müraciət edib. Çox hallarda gənc həkimlərdən eşidirdim ki, Almaniyaya gələ bilsələr, orada alman dilini yavaş-yavaş öyrənərlər. Lakin dili mükəmməl bilmədiklərinə görə buraya gəlib işləyə bilməyən həkimlər çoxdur. Əksəriyyəti deyir ki, ingilis dilini yaxşı bilirəm, almanca da 3-4 cümlə qurmağı bacarıram, tibbin dili də bütün dünyada latın dilidir, niyə bacarmayım? Məhz bu fikirlər onların karyeralarına mane olur. Dili ya bilirsən, ya da bilmirsən. Bunun ortası yoxdur. Fərqi yoxdur hansı peşəni icra etmək istəyirsən, getdiyin ölkənin dilini yaxşı öyrənməlisən. Dili yüksək səviyyədə öyrənmək həm sənin işlədiyin ölkəyə qarşı hörmətin bir əlamətidir, həm də məsuliyyət göstəricisidir. Getdiyin ölkə də bunu mütləq dəyərləndirir. Əgər dili yaxşı bilmirsənsə, elə bil ki, özün öz qollarını, ayaqlarını bağlayır, imkanlarını məhdudlaşdırırsan.

## VƏTƏNİN SİMASI, VİZİT KARTI

**● 2021-ci ilə qədər Almaniyada professor adını qazanan ilk azərbaycanlı idiniz. İndi necə?**

● 2021-ci ildən professor elmi titulunu daşıyıram. Amma növbəti illər ərzində xeyli sayda elmi işçilərimi yetişdirmişəm. Rəhbərliyim altında artıq 8-10 həkim həm tibb elmləri doktorluğu, həm də privatdozent dərəcəsini müdafiə edib. Düşünürəm ki, professor statusunu da alacaqlar. Fəxrlə deyə bilərəm ki, artıq Almaniyada çalışan yeganə azərbaycanlı professor deyiləm. Bu gün Almaniyada çalışan uğurlu azərbaycanlı həkimlərin sayı artır. Bu, vətənin siması, vizit kartıdır. Əvvəllər həmyerlilərimiz sadəcə həkim kimi işləyəndə uğurlu sayılırdı. İndi isə azərbaycanlılar professor, dosentdirlər.

**● Hər bir ölkə üstünlüyü bir çox hallarda öz vətəndaşlarına verir. Almaniyadakı 20 illik karyeranıza geri dönüb baxsanız, siz və digərləri bu uğurlara necə nail olurlar?**

● Xarici ölkəyə gedib, orada sıfırdan başlamaq üçün insan öz komfort zonasından çıxmağı bacarmalıdır. Tam fərqli cəmiyyətdə inkişaf etməyə çalışırsan. Əlbəttə ki, alman həkimi öz həmyerlisinə dəstək vermək istəyər. Yəni, azərbaycanlı həkim alman həkimindən ən azı bir baş üstün olmalıdır ki, ona eyni dərəcədə baxılsın. Xəstəxanaya gələn pasiyentlər də alman həkimi istəyirlər. Sən o qədər peşəkar olmalı, alman xəstə qarşısında özünü o qədər yaxşı sübut etməlisən ki, o, alman həkimdən heç nəyinin əskik olmadığını görsün. Ali təhsilli insanlar özünü diplomatik aparır, təhsilsiz insanlar isə millətçiliyi daha çox göstərirlər. Mən də öz təcrübəmdə dəfələrlə bu münasibəti görmüşəm. Biz sırf peşəkar keyfiyyətlərimizlə sübut edirik ki, Almaniyaya gəlib çalışmağımız burada yaşayan insanların xoşbəxtliyidir. Çünki biliyimizi, savadımızı burada sərf edirik. Onlar görürlər ki, bizim peşəkarlığımız heç də alman həkimlərindən əskik deyil, çox hallarda da üstündür. Ona görə də dəfələrlə məndən soruşurlar ki, onsuz da Almaniyada işləyirsən, bu qədər ağır tempdə oxumaq, titullar nəyinə lazımdır? Əlbəttə ki, professor titulum alman olmadığıma görə mənə skepsislə yanaşan xəstələrin qarşısında yüksək kvalifikasiyamın sübutudur. Hansısa alman həkimə professor olmaq bəlkə də daha az vacibdir, nəinki azərbaycanlı həkimə. Mənim kabinetimin üzərində “Cabbarlı” yazılır. Alman xəstənin “Dr. Müller”in (ad şərtidir) yanına getmək istəməsi təbiidir. Biz əcnəbi həkimlər bu münasibəti qırmaq üçün daha çox iş görməliyik.

## “TİBB SAHƏSİNDƏ ADINIZIN KİTABLARA DÜŞMƏSİNİ İSTƏYİRSİNİZSƏ...”

**● Neyrocərrahiyyə sahəsində tibb elminə töhfəniz məqalələr, kliniki fəaliyyətinizlə bitmir. Siz həm də Almaniyada beyin anevrizmalarına aid dünyanın ən iri məlumat bazasını yaratmısınız.**

● Elmi fəaliyyətlərimin nəticəsi olaraq, beyin anevrizması diaqnozu ilə hazırda altı minə yaxın xəstənin məlumat bazasını toplamışam. Neyrocərrahiyyə başqa tibbi sahələri ilə müqayisədə gəncdir. Tibbin digər sahələrində adi bir xəstənin müalicəsi böyük xəstə populyasiyası əsasında yazılan elmi tədqiqatların nəticəsidir. Neyrocərrahiyyə isə birinci dünya müharibəsində yaranıb. Bu gün neyrocərrahiyyə əməliyyatlarının hamısı mikroskopla aparılır. Bu mikroskoplardan isə ilk dəfə keçən əsrin 80-ci illərində istifadə etməyə başlayıblar. Mən 2003-cü ildə başlayanda müəyyən müalicə standartları qəbul olunurdu, beş ildən sonra isə standartlar tam dəyişdi. Bu, hələ də davam etməkdədir. Ona görə də neyrocərrahiyyə sahəsində müalicə etdiyimiz xəstələrin müalicə nəticələri üzrə qeydiyyatın olması vacibdir. Biz məlumatları analiz edərək anlayırıq ki, xəstəni hansı üsulla müalicə etmək daha effektivdir. Həmişə tələbələrə deyirəm ki, tibb sahəsində adınızın kitablara düşməsini istəyirsinizsə, neyrocərrahiyyəni seçin. Məsələn, kardiologiya sahəsində o qədər sirr açılıb ki, yeniliyə nail olmaq çox çətindir.

> *“Bu gün Almaniyada çalışan uğurlu azərbaycanlı həkimlərin sayı artır. Əvvəllər həmyerlilərimiz sadəcə həkim kimi işləyəndə uğurlu sayılırdı. İndi isə azərbaycanlılar professor, dosentdirlər.”*

## “HƏR DÖVRÜN MÜƏYYƏN XƏSTƏLİKLƏRİ OLUR”

**● Sizin sahədə son zamanların əsas xəstəlikləri hansılardır?**

● Son illər bu sahədə xəstəliklərin artmasının səbəbi cəmiyyətin qocalmasıdır. Bu problem deyil, xoşbəxtlikdir ki, insanlar daha çox yaşayırlar. Amma bu fakt Almaniya, Yaponiya kimi ölkələrdə daha ciddidir. Cəmiyyətlər yaşlandıqca yaşlı insanlara aid olan xəstəliklərin sayı artır. Fəqərə sütunu xəstəlikləri, onların üzərində spinal əməliyyatların sayı çoxalıb.

**● Son vaxtlar tez-tez eşidirik ki, mobil telefonlar həyatımıza daxil olandan beyin şişlərinin sayı artıb. Çox telefon istifadəsi beyində şiş yarada bilərmi?**

● Bəli, belə məlumatlar çoxdur. Amma bu iddianın heç bir sübutu yoxdur. Mobil telefondan sadəcə psixi cəhətdən asılı olmaq lazım deyil. Beyinə hansısa ziyanı, onkoloji təsiri yoxdur.

**● Texnologiyanın inkişafı sizin sahəyə necə təsir edib? Beyin əməliyyatını robota etibar etmək olar?**

● Texnologiyanın imkanlarından istifadə olunsa da, bu gün əməliyyatı hələ də insan aparır. Ola bilər haradasa 15-20 il sonra bunu robot edər, amma bu gün insan edir. Robot, texnologiya cərraha o halda kömək edir ki, əməliyyat iki saata bitəcəksə, robotun köməkliyi ilə yarım saat tez və millimetr dəqiqliyi ilə aparılır. Bu da əməliyyatın effektivliyini və tezliyini artırır. Xəstəliklərin sayı artdıqca, neyrocərrahiyyə də ona müvafiq olaraq inkişaf edir.





## “BİOPROTEZLƏR QOYULACAQ”

**● Ən çox səsləndirilən fikirlərdən biri beyinə çip yerləşdirməklə bağlıdır. Bu, mümkündürmü?**

● Bu, cəfəngiyyatdır. Amma bu yalanın da hansısa düzgün tərəfi var. Neyrocərrahiyyə funksional istiqamətdə inkişaf edir. Həqiqətən beyin implantları var. Amma bu, İlon Maskla əlaqəli deyil. Biz neyrocərrahiyyədə 30-40 ildir ki, bunu edirik. Məsələn, parkinson xəstəliyi olan insanlarda əl titrəyir. Əlin titrəməsinin qarşısını almaq üçün beyinə implant qoyuruq. Bu əməliyyata oxşar olan başqa əməliyyatlar da var. Bu gün insanları epilepsiyadan, depressiyadan müalicə edirik. İnsanlar var ki, ağrı sindromları çox kəskindir, heç bir dərman təsir etmir. Bunu da stimulyasiya ilə müalicə edirik. Əgər fantastika gözləyiriksə, düşünürəm ki, yaxın 20 il ərzində görmə məhdudiyyəti olan insanların stimulyatorun köməyi ilə görmə qabiliyyətlərini bərpa edə bilərik. Bundan əlavə, yaxın gələcəkdə beyin impulsu tərəfindən idarə edilən bioprotezlər qoyulacaq.

**● Neyrocərrahiyə sahəsində sizi ən çox təəccübləndirən məqamlar nələr olub?**

● İntensiv məşğul olduğum sahə beyin damarlarının xəstəlikləridir. Bunların müalicəsi çox çətindir. Ümumiyyətlə, tibbin cərrahi bölmələri çətin hesab edilir. Neyrocərrahiyyə isə xüsusilə ağır sahədir. Ümumi həqiqət var ki, biz bu dünyaya gələndə müəyyən sayda sinir hüceyrələri ilə doğuluruq. Dəri hüceyrələrindən fərqli olaraq, sinir hüceyrələri yenidən əmələ gəlmir. İnsan yaşlandıqca hüceyrələrin sayı azalır. Beyin cərrahiyyəsində cərrahın cüzi səhvi xəstənin ölümünə səbəb olur. Beynin transplantasiyası da mümkün deyil. Əməliyyatxanaya girəndə bilirəm ki, səhv etməyə haqqım yoxdur. Bu da təbii ki, müəyyən gərginlik deməkdir. Neyrocərrahiyyəyə gələn insan bu çətinliyi anlamalıdır. Biz ağır beyin qanaxmaları, beyin şişləri, ağır formada travma keçirən insanları həyata qaytarırıq. Bəzən ağır beyin əməliyyatından çıxıram, yatmağa hazırlaşanda yenidən zəng gəlir, təkrar geyinib beyin qanaxması keçirmiş xəstəni əməliyyat edirəm. Bu, çox ağırdır. Amma həmin xəstələrin təkrar müayinəyə gəldiyini görəndə deyirsən ki, bu, bütün əziyyətlərə dəyər.

## “ON-OFF PRİNSİPİ”

**● Bəs belə gərgin rejimdə işləyən beyin cərrahı öz beyninə necə istirahət verir?**

● Belə həyat tərzində yaşamaq üçün Almaniyada çox vacib bir qayda var. Mən ona “On-Off prinsipi” deyirəm. İşləyən fazadan (“On” ) sonra “Off” fazası olmalıdır. Yəni işdən tam ayrılmalısan və o vaxt heç kim səni axtara bilməz. Təəssüf ki, Azərbaycanda telefonunu söndürmək bir qədər çətindir, amma Almaniyada bu imkan var. Beynin istirahəti üçün insanın hobbisinin olması çox vacibdir. Mən səyahət etməyi sevirəm. Çox böyük zövqlə dünyanı gəzirəm.

**● Uğur sirriniz nədir?**

● Mənə görə, uğurun birinci şərti insanın özünə qarşı səmimi olmasıdır. İnsan qabaqcadan bilməlidir ki, həyatında nəyə nail olmaq istəyir və bunun üçün nə edə bilər? Əgər lazımi dərəcədə motivasiya, məqsədyönlülük və səmimiyyət varsa, insan istədiyi hər şeyə nail ola bilər. Sadəcə, plan qurmaq və planla getmək lazımdır. Bir şeyi başa düşməlisən ki, həmişə qalib gəlmək mümkün deyil. Hər bir uğurlu insan mütləq o yerə gələnə qədər yıxılıb. Mən də illər ərzində dəfələrlə yıxılmışam. Elə günlərim olub ki, özümə sual vermişəm ki, bəlkə həyatımda daha asan bir yol seçə bilərdim? Başa düşmək lazımdır ki, savaşda hansısa bir məğlubiyyət o demək deyil ki, müharibəni tam uduzmusan. O məğlubiyyətlər səni qalibiyyətə apara bilər. Qarşıma qoyduğum məqsədlərimə möhkəm inamım və hər bir səhvim üzərində işləməyim bugünkü nailiyyətlərimi mümkünləşdirib.

# SÜNİ İNTELLEKT STRATEGİYASI HAZIRLANIR



Azərbaycan rəqəmsal infrastrukturun inkişafı üzərində işləyir. Bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə də xüsusi əhəmiyyət verilir.

Qazaxıstanın Almatı şəhərində "Digital Almaty" beynəlxalq rəqəmsal forumu keçirilib. Azərbaycanı tədbirdə Baş nazir Əli Əsədov təmsil edib.

### RƏQƏMSAL İNFRASTRUKTURUN İNKİŞAFI PRİORİTETDİR

Tədbirdə çıxış edən Baş nazir bildirib ki, Azərbaycan rəqəmsal infrastrukturun inkişafı üzərində işləyir və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə böyük əhəmiyyət verir. Onun sözlərinə görə, internet infrastrukturunun inkişafına yönəlmiş əhəmiyyətli təşəbbüslər arasında "Onlayn Azərbaycan" layihəsini qeyd etmək lazımdır. Bu layihə çərçivəsində ölkədəki bütün yaşayış və kommersiya obyektlərinin 99 %-dən çoxu yüksək sürətli genişzolaqlı internetə qoşulub. "Dövlət idarəçiliyinin rəqəmsallaşdırılması yolunda ən mühüm addımlardan biri "rəqəmsal hökumət" platformasının yaradılması olub. Dövlət qurumları arasında məlumat mübadiləsi prosesini tam rəqəmsallaşdıran "Rəqəmsal körpü" milli məlumat mübadiləsi sistemi tətbiq edilib. Dövlət idarəçiliyinin səmərəliliyinin artırılması üçün "Hökumət buludu" layihəsi işə salınıb", - Baş nazir qeyd edib.

### BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN İMKAN

"Biz həmçinin startapların inkişafı, sahibkarlığın stimullaşdırılması və innovasiya ekosisteminin dəstəklənməsi üçün əlverişli şəraitin yaradılmasına böyük əhəmiyyət veririk. Fəaliyyətə yeni başlayan sahibkarlara layihələri işə salmağa və potensiallarını inkişaf etdirməyə kömək edən müxtəlif proqramlar həyata keçirilir", - hökumət başçısı bildirib. Ə.Əsədov həmçinin qeyd edib ki, rəqəmsal transformasiya təkcə texnoloji proses kimi deyil, həm də beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün bir imkan kimi nəzərdən keçirilməlidir.

### Prioritet sektorlar müəyyənləşdirilir

Baş nazir deyib ki, hazırda Azərbaycanda süni intellekt strategiyası hazırlanır və bu texnologiyanın tətbiqi nəticəsində səmərəliliyin əhəmiyyətli dərəcədə arta biləcəyi prioritet sektorların müəyyənləşdirilməsinə xüsusi əhəmiyyət verilir. "Bu, ilk növbədə, səhiyyə, nəqliyyat və təhsil sahələridir. Həmçinin, bu sahədə müasir və çevik qanunvericiliyin hazırlanması və tətbiqinə xüsusi diqqət yetiririk", - Baş nazir bildirib. Onun sözlərinə görə, xüsusilə bir sıra sənədlərin rəqəmsal formatda istifadəsi üçün hüquqi baza yaradılıb. "Bu, vətəndaşların dövlət orqanları ilə qarşılıqlı əlaqəsini asanlaşdırır, rahat və əlçatan rəqəmsal ekosistemin yaradılmasına kömək edir".



Ə.Əsədov vurğulayıb ki, Azərbaycan rəqəmsal inkişafa dövlət strategiyasının ən vacib elementi kimi çox böyük önəm verir.



# SOCAR Qazaxıstan neftinin tranzitinə başlayır

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Qazaxıstanın "Kaşağan" yatağından hasil edilən xam neftin Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə tranzitinə başlayır.

"Report" SOCAR-a istinadən xəbər verir ki, yanvarın 25-də Aktau limanında tankerə yüklənən "Kaşağan" neftinin ilk partiyası təxminən 6 min ton təşkil edir.

Yanvarın 27-də Səngəçal terminalına çatan yük BTC vasitəsilə Ceyhan limanına daşınacaq. İlk partiya Qazaxıstanın "KazMorTransFlot" şirkətinin idarə etdiyi "Taraz" tankeri ilə daşınır. Bu, 2025-ci il yanvarın 15-də SOCAR-ın törəmə şirkəti "SOCAR Midstream Operations" MMC ilə "KazMunayQaz"ın (KMG) törəmə şirkəti "KMG Trading" arasında ildə 240 min ton "Kaşağan" neftinin tranziti üzrə sazişin imzalanmasından sonra mümkün olub.

2024-cü ilin martında SOCAR və KMG arasında Azərbaycan ərazisindən neft tranzitinin mərhələli şəkildə artırılması haqqında saziş imzalanıb. Sənəd tədarük həcminin ildə 2,2 milyon tona qədər artırılmasını nəzərdə tutur.

SOCAR və KMG arasında 2022-ci ilin noyabrında imzalanmış saziş ildə 1,5 milyon ton "Tengiz" yatağı neftinin tranzitini nəzərdə tutur. 2024-cü ilin fevralında Qazaxıstan neftinin Azərbaycan ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında saziş imzalanıb.

Qeyd edək ki, "Kaşağan" neftinin BTC vasitəsilə nəqlinə başlanması Azərbaycan ilə Qazaxıstan arasındakı dostluq münasibətlərinin təzahürü olmaqla yanaşı, ölkələrimizin əməkdaşlığının daha da möhkəmləndirilməsinə xidmət edir.

# "NAR" PEŞƏ TƏLİMLƏRİNƏ DƏSTƏK OLUB

İnklüziv cəmiyyətin inkişafına dəstəyinin davamı olaraq, "Nar" "Karlara Dəstək" İctimai Birliyi ilə birgə nitq və eşitmə məhdudiyyətli şəxslər üçün keçirdiyi modelyer-dizayner ixtisası üzrə peşə təlimlərini uğurla tamamlayıb. Üç ay davam edən təlimlərdə 18-40 yaş arasında olan nitq və eşitmə məhdudiyyətli 10 nəfər iştirak edib.

Layihə çərçivəsində iştirakçılar yeni peşə öyrənərək cəmiyyətə inteqrasiya olmaq, öz yaradıcılıq potensiallarını üzə çıxarmaq və müstəqil karyera qurmaq imkanı qazanıb. Təlimlər zamanı onlara modelyer-dizayner peşəsinin



incəlikləri, o cümlədən parça seçimi, eskizlərin yaradılması və hazır məhsulun hazırlanması kimi praktiki bacarıqlar öyrədilib. Praktiki biliklərlə yanaşı, nəzəri biliklərin də yer aldığı proqram onların gələcəkdə peşəkar fəaliyyətlərini uğurla davam etdirmələrinə zəmin yaradır.

Sosial məsuliyyəti əsas fəaliyyət istiqamətlərindən biri kimi qəbul edən "Nar" inklüzivlik, təhsil və regional inkişaf sahələrində mühüm layihələr həyata keçirir. Mobil operator fiziki imkanları məhdud şəxslərə yönəlik sosial layihələrə dəstəyini davam etdirərək hər bir fərdin bərabər imkanlara sahib olmasına töhfə verməyi qarşısına məqsəd qoyur.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son beş ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Kaspi
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 232
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# EVLƏRİN QİYMƏTİ ARTMAQDA DAVAM EDƏCƏK

Mənzil bazarında qiymətlər fantastik həddə çatır. Ekspertlər burada qeyri-adi nəsə olmadığı qənaətindədirlər. Proqnozlar da ürəkaçan deyil. Bahalaşma davam edəcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Mənzil bazarında qiymətlər artmaqda davam edir. Bunu statistik məlumatlar da təsdiqləyir. Belə ki, 2024-cü ildə Azərbaycanda mənzil bazarında qiymətlər 2023-cü ilə nisbətən 9.9 faiz artıb. Ötən il əvvəlki illə müqayisədə ilkin mənzil bazarında qiymətlər 11.3 faiz, təkrar mənzil bazarında isə 9.8 faiz artıb. Göründüyü kimi, qiymətlər sabitləşmir. Bəs bu nə vaxt səngiyəcək? Daşınmaz əmlak bazarında qiymətlər bu il də artmaqda davam edəcəkmi?

### "ƏN YÜKSƏK QİYMƏT ARTIMI NƏRİMANOV RAYONUNDADIR"

"Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti" İctimai Birliyinin sədri, iqtisadçı-ekspert Vüqar Orucun sözlərinə görə, qiymət artımı ilə bağlı onlarda olan rəqəmlər rəsmi statistikadan da yüksəkdir: "Ötən ilin dekabr ayında Bakının mənzil bazarında köhnə mənzillərin qiyməti 2023-cü ilin eyni dövrü ilə müqayisədə orta hesabla 10,5 faiz, yenitikililərin qiyməti isə 12,3 faiz artıb. Ən yüksək qiymət artımı Nərimanov rayonunda qeydə alınıb. Burada köhnə binalarda qiymətlər 14, yenitikililərdə isə 16 faiz artıb. Səbail rayonunda köhnə binalar üzrə qiymətlər 13, yenitikililər üzrə isə 15,2 faiz artıb. Nəsimi rayonunda bu göstəricilər müvafiq olaraq 12,2 və 15,2 faiz, Nizami rayonunda 11,7 və 12 faiz, Yasamalda 11,1 və 12,8 faiz, Qaradağda 7 və 8 faiz, Sabunçuda 8 və 10 faiz, Suraxanı və Binəqədidə köhnə binalar üzrə qiymət artımı müvafiq olaraq 6,8 və 8,3 faiz, yenitikililər üzrə isə 9,5 və 9,6 faiz təşkil edib".



Vüqar Oruc

### Bahalaşmanı şərtləndirən səbəblər

Sədrin sözlərinə görə, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri tikinti materiallarına tələbatı artırır: "Əgər tikinti şirkətinə əvvəl bir kvadratmetr daha ucuz başa gəlirdisə, indi bu rəqəm 20-30 faiz yüksəlib. İşçi qüvvəsinin də qiyməti artır". V.Oruc bildirdi ki, insanlar dayanıqlı biznes sahəsi kimi daşınmaz əmlakı görürlər. Bu, ilbəil qiymətini artıran və dəyərdən düşməyən investisiya növüdür: "Kirayə verərsə, daha artıq gəlir deməkdir. Nəzərə almalıyıq ki, Bakının Baş planına uyğun olaraq müəyyən binaların söküntüsü aparılır. Onların yerində yeni binalar inşa ediləcək. Mənzillər söküldükcə orada yaşayan sakinlər də daşınmaz əmlak bazarına yönəlirlər. Həmçinin MİDA kimi sosial layihələrin həyata keçirilməsi də daşınmaz əmlak bazarında dinamiklik və aktivliyin yaranmasına təsir göstərir". Ekspert deyir ki, tək hazır mənzillərə deyil, hətta təməli yeni qoyulan əmlaklarda da qiymətlər yüksəlib: "Son vaxtlar alıcıların təməl mərhələsində olan binalardan mənzil almağa marağı artıb, bu isə qiymətlərə təsirsiz ötüşmür. Bəzən bu mərhələdə olan tikililər hətta yenitikili və təkrar yenitikililərdən daha yüksək qiymətə təklif olunur. Əvvəllər bu cür mənzillərə ehtiyatla yanaşan alıcılar son vaxtlar onlara daha çox maraq göstərməyə başlayıblar. Səbəblərdən biri də iqtisadi amillərdir. Ölkə iqtisadiyyatı böyüyür. Manatın alıcılıq qabiliyyətində müəyyən fərqlər yaranır. Nəticədə bunlar hamısı qiymətlərin artımı ilə nəticələnir". V.Orucun fikrincə, qarşıdakı dövrdə əmlak bazarında qiymətlər daha da arta bilər: "Hər il daşınmaz əmlak 10-17 faiz bahalaşır. Əgər ABŞ və İran münasibətləri gərginləşərsə, oradan soydaşlarımızın ölkəmizə kütləvi axını olarsa, bu da daşınmaz əmlak qiymətlərinin daha da yüksəlməsinə şərait yaradacaq".

### VERGİLƏR ARTIB, QAYDALAR SƏRTLƏŞDİRİLİB

Əmlak məsələləri üzrə ekspert Firdovsi Xəlilovun fikrincə, mənzil bazarında qiymət artımını yaradan səbəblərdən biri vergilərin artmasıdır: "Əvvəl sahibkar 10 min kvadratmetr satışa çıxarırdısa, hər kvadratmetrinə 67-130 manat vergi ödəyirdi. İndi belə deyil. Yeni məcəllə 2020-ci ilin noyabrından qüvvəyə minib. Bu tarixdən sonra icazəsi alınıb tikintisi başlayan tikililərdə sadələşmiş vergi əvəzinə 18 faiz əlavə dəyər vergisi, mənfəətdən isə 20 faiz tutulur. Belə olan halda 100 manat olan vergi yükü 400-500 manata qədər yüksəlir".

Ekspertin sözlərinə görə, ikinci məsələ şəhərsalma qaydalarına əlavə olunmuş şərtlərin daha da ciddiləşməsidir: "Yeni tələblərə əsasən, alınan ərazinin yalnız 30 faizində inşaat aparmaq mümkündür. Əvvəl binalar çox yaxın tikilirdi. Bir hektarda 50-70 min kvadratmetrlik mənzil sahəsi istismara verilirdi. İndi bu göstərici maksimum 22 min kvadratmetrdir. Nəticədə təklif edilən mənzil sayı azalır. Həmçinin bloklarda mənzillərin sayı xeyli azaldılıb. Əvvəl bir blokda 10-12 mənzil olardısa, indi qapı sayına da nəzarət edilir".

### "MƏNZİLLƏR O ÖLKƏLƏRDƏ UCUZLAŞIR Kİ..."

Ekspert bildirdi ki, bu il də qiymətlər yüksələn istiqamətdə olacaq: "Qiymət artımının sadəcə mənzillərdə olmadığını nəzərə alsaq, bu prosesi normal qəbul etməliyik. Mənzillərin qiymətinin ucuzlaşmasını tələb edirik. Amma bu, səhv düşüncədir. Çünki o ölkələrdə mənzillərin qiyməti ucuzlaşır ki, orada iqtisadi gərginlik, böhranlar baş verir. İqtisadiyyatları inkişaf edən dövlətlərdə mənzillərin qiyməti ucuzlaşa bilməz. Bahalaşma bir müddət də davam edəcək. Bu il də bahalaşmaya hazır olmalıyıq. Ümumi iqtisadi göstəricilər yolunda gedərsə, heç bir hadisə baş verməzsə, il sonuna doğru daşınmaz əmlakın daha 13-15 faiz bahalaşacağı gözlənilir".



Firdovsi Xəlilov

“VALİDEYNLƏR “MƏNİM UŞAĞIMA HEÇ KİM HEÇ NƏ DEYƏ BİLMƏZ” DEYİRLƏR”

# “HELİKOPTER VALİDEYNLƏR”İN “ƏSƏR”İ

Müasir valideynlər icazə vermirlər ki, məktəbdə kimsə onların uşağına nəsə desin. Məktəbdə müəllimin uşağın tərbiyə prosesinə müdaxilə etmək səlahiyyəti olmayanda da bullinq halları çoxalır.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



“Müqəvva” filmi 1983-cü ildə ekranlara çıxanda tənqidçilər sovet məktəbinin rüsvay edildiyini əsas tutaraq rejissora qarşı hücuma keçdilər. Məktəblilər arasında zorakılığın baş verməsini ekrana gətirdiyinə görə rejissora dəstək verənlər də oldu. Filmin rejissoru Rolan Bıkov film terapiyasının alətləri ilə problemin təkcə həllini deyil, həm də başvermə səbəblərini göstərmişdi. Süjet zorakılığa məruz qalmış bir yeniyetmə qızın - Lenanın prizmasından zorakılığın bütün ətrafa mənfi təsirini detallarla ifşa edirdi. Halbuki o vaxtlar bullinq termini yaranmamışdı.

Elə indinin özündə də bullinq (bullying - qorxutma, hədə-qorxu, zorakılıq) qanunlarda və ya məktəb sənədlərində təsbit edilmir. Lakin valideynlər, müəllimlər və psixoloqlar tərəfindən vaxtaşırı istifadə olunur.

Son vaxtlar məktəblərdə baş verən bullinq hallarının artması Elm və Təhsil Nazirliyinin də diqqətini bu istiqamətə yönəldib. Nazirliyin uşaq hüquqları sahəsində hazırladığı konsepsiyada uşaq hüquqlarının qorunması, sağlam mühitin yaradılması məqsədilə valideynlər üçün təlimlərin təşkili, məktəblərdə psixoloji problemlərin və zorakılıq hallarının qarşısının alınması üçün tədbirlərin görülməsi, monitorinqlərin gücləndirilməsi və s. tədbirlər nəzərdə tutulur.

Mütəxəssislər konsepsiyanın problemin həllində rol oynayacağına ümidlərini gizlətmirlər.

**“HELİKOPTER VALİDEYN”**

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın (İŞ) üzvü Rasif Dünyamalıyevin fikrincə, uşaqlar arasında aqressiya bu günün problemi deyil, 20-30 il əvvəl də məktəblərdə dava, böyük uşaqların kiçiklərə qarşı zorakılığı olub, bu gün də var: “Sadəcə, o dönəmdə ictimai nəzarət vardı. Uşaqlar dava edəndə böyüklər müdaxilə edir, uşağı başa salırdı. İndi valideynlər icazə vermirlər ki, kimsə onların uşağına nəsə desin. Valideynlərin bu məsələyə yanaşması dəyişib. Valideynlər “mənim uşağıma heç kim heç nə deyə bilməz” deyirlər. Onda bullinqin qarşısı necə alınacaq? Məktəbdə müəllimin uşağın tərbiyə prosesinə müdaxilə etmək səlahiyyəti yoxdursa, ancaq təlimlə məşğul olursa, bu etik qaydaları, davranış normalarını uşağa kim öyrədəcək? Təəssüf ki, hazırda dünyada “helikopter valideyn” anlayışı formalaşıb. Valideynlər çalışırlar ki, uşaqların bütün davranışlarına nəzarət eləsinlər, helikopter kimi başlarının üstündə fırlansınlar, onları qorusunlar. Belə olanda uşaqlar özlərini “hər şey edə bilmək” səlahiyyətində hiss edirlər, “bizə heç kim heç nə deyə bilməz” deyə düşünürlər”. İŞ üzvü hesab edir ki, məktəbdə təhsilverənlər və təhsilalanlar üçün qaydalar müəyyən olunmasa, təlim və tədris prosesini təşkil edə bilmərik: “İstənilən müəssisənin daxili intizam qaydaları, etik kodeksi var. Bu qaydalar da ondan ötrüdür ki, məktəb daxilində hər kəs öz limitlərini bilsin. Sərhədlər müəyyən olunmasa, kim nə bildi edəcək. Bir yerdə qayda-qanun yoxdursa, orada nə inkişafdan, nə də perspektivdən danışa bilərik”.


Rasif Dünyamalıyev

## MÜƏLLİM-MƏKTƏB-AİLƏ ÜÇBUCAĞI

“Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin sədri Kəmalə Aşumova hesab edir ki, nazirliyin problemin həlli istiqamətində çıxış yolu axtarması təqdirəlayiqdir: “Çünki məktəblərdə bullinq, ailədən gələn problemlər, tərbiyəvi məsələlərdə valideyn qayğısının təmin olunmaması və s. halları biz artıq uşaqların yanaşmalarında müşahidə edirik”. K.Aşumova hesab edir ki, məktəblərdə peşəkar psixoloqların sayının az olması halları ilə rastlaşılsa da, problemin həllini təkcə psixoloqlardan tələb etmək düzgün olmaz: “Məsələnin həllində müəllimlərin rolu və öhdəlikləri də vacibdir. Çünki uşaqlarla ilk təmasda olan müəllimlər və sinif rəhbərləridir. Psixoloqa da uşağın problemini çatdıran müəllimdir. Müəllim-məktəb-ailə üçbucaq şəklində işləməlidir. Psixoloqların ilkin yardım göstərməsi üçünsə onların maddi-texniki bazası güclü olmalıdır. Həmçinin uşaqların “Uşaq qaynar xətti” haqqında məlumatlılığını gücləndirmək lazımdır. Onların çətin durumda müraciət etmələri üçün bir ünvanları olmalıdır”.



## “ELƏ BİR MƏKTƏB YOXDUR Kİ...”

Azərbaycan Dövlət Pedaqoji Universitetinin pedaqoji psixologiya kafedrasının baş müəllimi Nigar Məmmədova bildirir ki, hazırda məktəblərdə bullinqə məruz qalan uşaqların sayı durmadan artır: “Bugünlərdə tələbələrlə mövzumuz ailə münaqişələri idi. 80 faiz tələbə “valideynlərimiz bizə deyir ki, siz bizim yanlışımızsınız”, - deyə gileyləndilər. Bu cür böyüyən uşaq necə aqressiv olmasın və ya bullinqə məruz qalmasın? Əgər uşaqlarda aqressiya varsa, ilk növbədə onun ailəsinə baxmaq lazımdır”. N.Məmmədovanın fikrincə, məktəblərdə problemin həlli istiqamətində peşəkar psixoloqların olması vacibdir: “Yaxşı olardı ki, psixoloqlara dərs saatı verilsin. Hər sinifdə həftədə bir dəfə dərsləri olsa, yaxşı nəticə əldə etmək olar. Düzdür, hazırda məktəblərdə həm ibtidai siniflərdə oxuyanlar, həm də yeniyetmələrlə məşğul olan psixoloqlar çalışır, amma müşahidə edəndə görürsən ki, fəaliyyətləri o qədər də yoxdur. Hansı yeniyetməni danışdırırsan, içində yaxşı və pis mənada bir dünya var. Uşaqlarla ayrı-ayrılıqda məşğul olunmur. Bu tələb olsa, uşaq rahatlıqla psixoloqa gedə bilər. Bəzi psixoloqlar yanına gedən şagirdin məxfiliyini qorumur. Nəticədə uşaqların etibarı itir və məktəb psixoloqundan qorxurlar”.

N.Məmmədova bildirir ki, uşaqların aqressiyası məktəblərə görə dəyişmir: “Elə bir məktəb yoxdur ki, orada belə hallar baş verməsin. Əgər bir yerdə insan faktoru varsa, orada aqressiya da var. Sadəcə, ört-basdır edilənləri və üzə çıxanları olur”.

N.Məmmədovanın fikrincə, maarifləndirmə işləri gücləndirilməlidir: “Valideynlərlə söhbət çox önəmlidir. Yuxarı siniflərdə valideynlər iclasa gəlmirlər. Ailə ilə məktəb əlbir işləsə, tam hərtərəfli, məsuliyyətli şəxsiyyət formalaşdıra bilərik”.


Nigar Məmmədova

# BÖLGƏLƏRDƏ HƏKİM ÇATIŞMAZLIĞI



Rayonlarda ciddi həkim çatışmazlığı faktı artıq rəsmi səviyyədə etiraf edilir. Həyəcan təbili Milli Məclis səviyyəsində də çalınır. Ekspertlər isə problemin getdikcə kəskinləşəcəyindən narahatdırlar.

SEVİNC ABBASOVA

Bölgələrdə ciddi həkim çatışmazlığı var. Müşahidələr göstərir ki, rayonlarda peşəkar yaşlı həkimlər kütləvi şəkildə paytaxtdakı özəl klinikalara üz tuturlar. Gənc həkimlər də bölgələrə getmək istəmirlər. Nəticədə çox xoşagəlməz mənzərə yaranır. Rayonlarda yaşayan insanlar adi bir cərrahiyə əməliyyatı üçün Bakıya üz tutmaq məcburiyyətində qalırlar.

### "ONLARI TƏQAÜDƏ GÖNDƏRMƏYİN NƏ MƏNASI VAR?!"

Sözügedən məsələ parlamentdə də gündəmə gəlib. Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, bəzi rayonlarda 100-dən artıq həkim və orta tibb işçisi çatışmır. Komitə sədrinin sözlərinə görə, problemi daha da dərinləşdirən məsələ odur ki, 65 yaşı tamam olan həkimləri həmin gün çağırıb təqaüdə göndərirlər: "Əgər regionlarda həkim çatışmazlığı varsa, onları təqaüdə göndərməyin nə mənası var?! Çox vaxt həmin həkimlərin işləmə vaxtını bir il uzadırlar. Bu da böyük problemə çevrilir. Aidiyyəti üzrə dəfələrlə danışıqlar aparılır və bildirirlər ki, Bakıda təqaüdə çıxmış həkimləri bölgələrə göndərək. Təbii ki, bu, absurd məsələdir. Çünki Bakıda həmin yaşda olan hansı həkim gedib bölgədə fəaliyyət göstərəcək?!"

Bəs görəsən, getdikcə kəskinləşən problemin həlli üçün hansı addımlar atıla bilər?

### "TƏYİNAT OLARSA, HƏKİM DƏ GEDİB İŞLƏYƏR"

Ekspert Rasif Bağırov hesab edir ki, həkimlərin bölgələrdən uzaq düşməsi kadrların yerləşdirilməsi prosesindəki nöqsanlardan qaynaqlanır: "Problemi aidiyyəti qurumlar özləri yaradırlar. Sonra da məsələni həll etmək üçün "baş sındırırlar". Əslində Azərbaycanda həkim sayı ilə bağlı problem yoxdur. Hətta bəzi ölkələrlə müqayisədə həkimlərin sayı daha çoxdur. Bizdə əsas problem yerləşdirilmə ilə bağlıdır". Ekspert vurğulayıb ki, sovet dövründə də Azərbaycan Tibb Universitetinin ildə təxminən indiki qədər məzunu olub. Amma bölgələrdə həkim çatışmazlığı müşahidə edilməyib: "Çünki o dövrdə həkimlərə məcburi qaydada üç illik təyinat verilirdi. Hər kəs də gedib işləyirdi, yer boş qalmırdı. İndi Tibb Universitetini bitirən məzunların dövlət xəstəxanalarına işə qəbulu müsabiqə yolu ilə aparılır. Təyinat məsələsi demək olar ki, yoxdur. Əgər təyinat olarsa, həkim də gedib işləyər. Bölgələrdə həkimlərin maaşı pis deyil, dolanmaq olar".



### BU SAY SÜRƏTLƏ ARTIR

Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar Birliyinin rəhbəri İlqar Hüseynlinin sözlərinə görə, hazırda demək olar ki, bütün rayonlarda həkimlərə ehtiyac var: "Ölkədə ciddi həkim qıtlığı mövcuddur. Sovet dönəmində tələbələr Tibb Universitetini bitirib dərhal ixtisas alıb həkim kimi fəaliyyətə başlayırdılar. Lakin indiki sistemdə rezidentura təhsili var, yeni ixtisasa yiyələnmə ilə bağlı problemlər var. Tutaq ki, əvvəllər ölkədə kardioloq, ginekoloq çatışmazlığı olardısa, bu zaman ixtisasdəyişmə edilirdi. Artıq bu da yoxdur. Eyni zamanda, həkimlərin normal əməkhaqqı təminatı da mövcud deyil. Çox təəssüf ki, müstəqillik illərində bu problem daha da dərinləşdi. Nəticədə digər ölkələr həkimlərimiz üçün daha cəlbedici oldu. Məsələn, son illərin statistikasına görə, yalnız Almaniyaya 2000-ə yaxın gəncimiz həkim kimi çalışmağa gedib. Bu say sürətlə artır. Problemin daha da dərinləşməməsi üçün həkimlərin əməkhaqqı artırılmalıdır. Rayonlara gedən ixtisaslı tibb işçilərinin mənzil təminatı yaxşılaşdırılmalı, onlara əlavə ödənişlər edilməldir. Bunlar olmasa, həkimlərimizi itirməyə davam edəcəyik".

## YAŞ SENZİNİN ARADAN QALDIRILMASINA EHTİYAC VAR

Ekspert həkimlər üçün nəzərdə tutulan yaş senzinin aradan qaldırılmasının vacibliyini də qeyd edib: "65 yaşa çatan həkimlərin yaş senzi səbəbindən kütləvi olaraq işdən azad edilməsini doğru saymıram. Ölkənin əsas universitetlərində 75 yaşına qədər çalışan professor, müəllim heyəti var. Pensiyanın təyin edilməsi o demək deyil ki, illərdir fəaliyyət göstərən təcrübəli həkimlərin hamısı işdən azad edilsin".

İ.Hüseynli deyib ki, inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən məşhur həkimlərin əksəriyyəti 65-70 yaşında olanlardır: "Onlar həm tibbi xidmət göstərirlər, həm də tədrislə məşğul olurlar".

### TƏBİB-DƏ DƏ PROBLEMİ İNKAR ETMİRLƏR

Problemin mövcudluğunu TƏBİB-də də inkar etmirlər. Mövcud vəziyyətlə bağlı "Kaspi"nin sorğusuna cavab olaraq bildirilib ki, hazırda qurumun tabeliyindəki tibb müəssisələrində 17092 həkim fəaliyyət göstərir: "Bununla belə, bölgələrdə yerləşən bəzi tibb müəssisələrində müəyyən dar ixtisaslar üzrə həkim kadrlarının çatışmazlığı müşahidə edilməkdədir. Mövcud çatışmazlığın aradan qaldırılması istiqamətində TƏBİB tərəfindən səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülür. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən isə "Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2023-2024-cü illər üçün Proqram" layihəsi həyata keçirilib. Bu layihə çərçivəsində müxtəlif ixtisaslar üzrə işə qəbul olunan 65 həkim-mütəxəssis (uzman) hazırda Abşeron, Biləsuvar, Şəki, Şəmkir, Samux rayon mərkəzi xəstəxanalarında, Gəncə Şəhər Birləşmiş Xəstəxanasında, Kliniki Tibbi Mərkəz, Mərkəzi Neftçilər Xəstəxanası, Nərimanov Tibb Mərkəzi, Respublika Klinik Xəstəxanası, Sabunçu Tibb Mərkəzində çalışırlar. Həmin həkim-mütəxəssislər daha çox tələbat olan cərrahi, radioloji, terapevtik və pediatrik profilli ixtisaslar üzrə cəlb olunublar".

### YENİ İŞƏ QƏBUL QAYDASI QÜVVƏYƏ MİNİB

Qurumdan vurğulanıb ki, Nazirlər Kabineti "Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası"nı təsdiq edilib. Həmin qayda 2025-ci il yanvarın 1-dən qüvvəyə minib: "Sözügedən qayda ilə dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu vahid formada tənzimlənəcək".



Rasif Bağırov



İlqar Hüseynli

SON İLLƏRDƏ POMİDOR İSTEHSALI VƏ İXRACINDA CİDDİ ARTIM MÜŞAHİDƏ OLUNUR

# İXRACDA BRENDLƏŞƏN MƏHSULUMUZ

**Pomidor Azərbaycanda qeyri-neft sektorunda ən çox gəlir gətirən məhsullardan biridir. Pomidor ixracımız da artmaqda davam edir. Ekspertlərin fikrincə, bu sahədə həm istehsal, həm də ixrac baxımından olduqca böyük potensialımız var.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



2024-cü ilin ilk 10 ayı ərzində Azərbaycandan 141 milyon 965 min dollar dəyərində 118 min 922 ton pomidor ixrac edilib. Bu barədə Dövlət Gömrük Komitəsinin məlumatında bildirilir. 2023-cü ilin 10 ayı ərzində Azərbaycandan 126 milyon 81 min dollar dəyərində 113 min 319 ton pomidor ixrac edilmişdi. Beləliklə, Azərbaycandan pomidor ixracı miqdar ifadəsilə 5 min 604 ton və ya 5 faiz, dəyər ifadəsilə 15 milyon 885 min dollar və ya 12,6 faiz artıb.

Rəqəmlərdən də göründüyü kimi Azərbaycanda pomidor ixracı ildən-ilə artır. Bu sahədən həm yaxşı gəlir əldə edilir, həm də məşğulluq təmin olunur. Azərbaycan pomidoru dad və keyfiyyət baxımından üstünlüyə malikdir. İstehsalı artırmaq üçün kifayət qədər boş torpaq sahələri də var.

Bəs bu sahədə perspektivlərimiz nələrdir? İxracla bağlı potensialımızı daha artıra bilərikmi? Bunun üçün hansı addımların atılmasına ehtiyac var?

### QAZA SUBSİDİYA TƏTBİQ EDİLSİN

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamovun sözlərinə görə, qeyri-neft ixracımızın tərkibində pomidor ixracı həlledici rol oynayır: "Belə ki, 2024-cü ildə 2023-cü ilə nisbətən ixracın 12,6 faiz artması müsbət haldır. Bu, pomidor istehsalı sahələrinin genişləndirilməsi hesabına əldə olunur. Ölkədə yeni pomidor istixanalarının yaradılması üçün kifayət qədər şərait var. Həm də aqrar sektora dövlət dəstəyi proqramları tətbiq olunur".

A.Badamov düşünür ki, sahibkarlar maarifləndirilməli və ixrac bazarlarında pomidora tələbin yüksək olduğu izah edilməlidir: "Pomidor istehsalı sahələrinə verilən təbii qaza subsidiyalar tətbiq edilsə, daha yaxşı olar. Çünki istehsal xərclərinin azalması görülən işlərin rentabelliyini artırır".

### BİR BAZARDAN ASILI OLMAMALIYIQ

Sədr müavini bildirdi ki, ixracla bağlı alternativ bazarların olmasına da ehtiyac var: "Bizim əsas pomidor ixracı bazarımız Rusiyadır. Orada rublun ucuzlaşması sahibkarların gəlirlərini azaldır. Bu tendensiya davam edərsə, sahibkarlarımıza Rusiya bazarlarına kənd təsərrüfatı məhsullarını ixrac etmək o qədər sərfəli olmayacaq. Ona görə də indidən ixrac coğrafiyamızın genişləndirilməsi üzərində düşünməliyik. Qeyri-neft ixracımızın bir bazardan asılı olmasını düzgün hesab etmirəm. Bazarların şaxələndirilməsi ölkəmiz üçün əsas prioritet olmalıdır".

**POMİDOR İXRACI**

2024-cü il, yanvar-oktyabr
dəyər: 141 mln 965 min $
həcm: 118 min 922 ton

2023-cü il, yanvar-oktyabr
dəyər: 126 mln 81 min $
həcm: 113 min 319 ton





Azər Badamov

## POMİDOR ÜZRƏ İXTİSASLAŞMIŞ RAYONLARIMIZ VAR

Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyevin fikrincə, həm iqlim şəraitimiz, həm də məhsuldar torpaqlarımız pomidor üçün olduqca əlverişlidir: "Pomidor Azərbaycanda qeyri-neft sektorunda ən çox gəlir gətirən məhsullardan biridir. Pomidor üzrə ixtisaslaşmış rayonlarımız mövcuddur. Torpaqlarımızda olduqca keyfiyyətli pomidor məhsulu yetişdirmək mümkündür. Günəşli günlərin sayının çox olduğunu nəzərə alsaq, keyfiyyətli məhsul yetişdirmək üçün bütün şərait var. Bu da məhsulumuzun dadını və məhsuldarlığını xeyli artırır. Subsidiyalar və dəstəyin artırılması bu sahənin inkişafına təsir göstərir".

### "AZƏRBAYCAN POMİDORU ARTIQ BRENDLƏŞİB"

E.Allahverdiyevin sözlərinə görə, ixracımız artdıqca, istehsalçılar da tələbatı ödəməyə daha çox diqqət edirlər: "Pomidor üçün ənənəvi bazarımız Rusiyadır. Həmin bazarlarda Azərbaycan pomidoru artıq brendləşib, deyə bilərik. Rusiya bazarında pomidorumuzun yeri xüsusidir. Həmçinin istehsalçılar da o ölkəyə ixraca maraqlıdırlar. Bazarda məhsulumuza olan tələbatın artması ilə istehsalçılar istixanalarını böyütməyə çalışır, daha məhsuldar sortlara müraciət edirlər. Düzgün aqrotexniki tədbirlər görərək məhsuldarlığı artırırlar. Ərəb ölkələrinə, həmçinin bir sıra Avropa ölkələrinə də məhsul ixrac edirik. Düşünürəm ki, artım tempi daha da yüksəlməyə doğru gedəcək".

Ekspert qeyd etdi ki, ixracın artırılması üçün məhsuldarlığı artırmalıyıq: "Daha müasir istixanaların qurulmasına ehtiyac var. Açıq sahələrdə ənənəvi suvarma üsullarından əlavə, müasir suvarma üsullarına da müraciət edə bilərlər. Aqrotexniki tədbirlərə düzgün riayət olunmalıdır. Xüsusilə gübrələmə rejiminə düzgün riayət etsələr, məhsuldarlıq daha yüksək olar. Həmçinin bölgələr üzrə sortları düzgün seçmək lazımdır".

## UZAQ BAZARLARIN BÖYÜK PROBLEMLƏRİ

E.Allahverdiyev də Rusiya bazarı ilə yanaşı, alternativ bazarların olmasını vacib sayır: "Bu zaman imkanlar daha da çoxalır, asılılıq azalır. Amma daha yaxın bazarları seçmək əlverişlidir. Rusiya ən uyğunudur. Sahibkarlar üçün də daha uzaq bazarlar uyğun deyil. Çünki logistika xərcləri daha da artır. Xərclər məhsulun maya dəyərinin üzərinə gəlir. Pomidor kimi məhsulların xarab olması ehtimalını da hesablamalıyıq. Məhsul tez sıradan çıxdığı üçün daha yaxın bazarlar sərfəlidir. Alternativ bazarlarda məhsulun tanıdılması da vaxt aparır. Həmin bazarlarda daha güclü rəqiblər, istehsalçıların olduğunu da nəzərə almalıyıq".



Elmar Allahverdiyev

# KÖRPÜLƏR, QAĞAYILAR VƏ DUMANLAR ŞƏHƏRİ

**Portuqaliyanın ikinci böyük şəhəri olan Porto Douro çayının üstündəki qranit qayaların üzərində tikilib və heyrətamiz dərəcədə gözəldir. Şəhər özündə klassik görünüşlə müasir atmosferi mükəmməl şəkildə birləşdirir.**

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Porto - Lissabondan sonra Portuqaliyanın ikinci böyük şəhəri, ölkənin şimal paytaxtıdır. Lissabonun rəqibi kimi tanınır: iki şəhərin sakinləri yeməklərinin daha dadlı və mənzərələrinin daha füsunkar olduğu haqda mübahisəni heç vaxt dayandırmırlar. Şəhər Douro çayının üstündəki qranit qayaların üzərində tikilib və heyrətamiz dərəcədə gözəldir. Özündə klassik görünüşlə müasir atmosferi mükəmməl şəkildə birləşdirir.

## NOSTALJİ TRAMVAY

Porto “Liman” (Port) şərabının paytaxtı, körpülər, qağayılar və dumanlar şəhəridir. Şəhər monumental barokko binaları, rəngli kirəmitli evlər, qədim kilsələr, köhnə fabriklər, daş döşənmiş, dar və mənzərəli küçələr, sənət məkanları, müasir incəsənət muzeyləri ilə doludur.

Portoda ictimai nəqliyyat üçün gündəlik bilet almağın mənası yoxdur, çünki marşrut boyu piyada səyahət etmək daha maraqlıdır. Şəhər məhz avtomobillə əlçatmaz olan küçələri və xiyabanları ilə gözəldir. Amma planınız tarixi mərkəzdən çıxmaqdırsa, bütün gün üçün metro biletinin qiyməti yeddi avrodur.

Portoda 1872-ci ilə aid tramvaylar da var. Ən populyar marşrut - 1 nömrəli tramvay (Infante - Passeio Alegre) sərnişinləri tarixi mərkəzdən birbaşa Atlantik okeanının sahilinə (3,5 avro) aparır. Bu, Portuqaliyanın ən sevimli simvollarından biridir və ölkə üzrə ilk dəfə Portodan yola çıxıb. İndi bu nəqliyyatın özünəxas, nostalji nəğməsini dinləyə-dinləyə şəhərin mərkəzindən müxtəlif istiqamətlərə istifadə etmək mümkündür. Tramvay Douro çayı boyunca hərəkət edir və Portonun ən uzaq hissəsi olan Foza çatır. Şəhərdə nəqliyyatın bu qədim növünə muzey açılması da təsadüfi deyil. Turistlər “Tramvay Muzeyi”ndə illər ərzində Portoda səyahət edən tramvayların tarixi ilə tanış olurlar.

Əgər desələr ki, “Porto gəzmək üçün bir günlük şəhərdir”, inanmayın! Əsas attraksionlar mərkəzdədir. Daş döşənmiş küçələrdə gəzmək və 18-ci əsr şəhər evlərinə, muzeylərə, həmçinin dəbli mağazalara, restoranlara və eksklüziv butik hotellərə heyran olmaq üçün bir neçə gün lazımdır. Douro çayının əks sahilindəki şərab zirzəmilərinə baxmaq da bu şəhərə səyahət etmə səbəblərindən biri ola bilər.

## QƏDİM MEMARLIĞI İLƏ GÖZ OXŞAYAN TARİXİ ŞƏHƏR

Portonun tarixinə daha yaxından baxmaq üçün köhnə şəhərə - turistlərlə qaynayan Ribeyra rayonuna getmək lazımdır. Bu tarixi ərazi qədim memarlığı ilə göz oxşayır. Ribeyradakı bir çox evlərin 300 yaşı var. İnsanlar burada hələ də məskunlaşıblar. Tarixi binaların demək olar ki, hamısı tünd göy rəngli keramika və kafelləri ilə öyünür. Evlərin divarlarını bəzəyən rəngli keramika əsərləri “Azulejo” adlanır.

Məhəllə Douro çayının heyrətamiz mənzərələri ilə də məşhurdur. Çay üzərində Maria Pia körpüsü 19-cu əsrin sonlarında qabaqcıl texnologiyalardan istifadə edilməklə tikilib. Körpü Eyfel qülləsinin memarı Qustav Eyfelin tələbəsi tərəfindən yaradılıb. Körpü turistlər üçün altında dayanaraq günəşin qürubunu və şəhəri qəfil bürüyən dumanı seyr etmək baxımından da məşhurdur. Yerli əhalinin dediyinə görə, Portonun ən yaxşı mənzərəsi çayın o tayındadır. Turistlər buradakı “Şərab Muzeyi”ndən Porto şərablarının hekayəsini öyrənirlər.

## MÜASİR İNCƏSƏNƏT MƏRKƏZİ

Porto həm də müasir incəsənət mərkəzidir. Burada zəngin incəsənət muzeyləri və çoxsaylı qalereyalar var. Cedofeita və Santa Caterina nəqliyyat üçün bağlanan alış-veriş küçələridir. Portoda küçə sənəti şəhərin meri tərəfindən dəstəklənir. Şəhərdə hətta incəsənətə həsr olunmuş divarlar da var. Küçələrdə gəzərkən qəfildən qraffiti rəssamlarının rəngarəng əsərlərinə rast gələ bilərsiniz. Xüsusilə “Miguel Bombarda” küçəsi sənət qalereyaları və qraffitilərlə doludur.

Şəhərin tarixi mərkəzində yerləşən “San Fransisko” kilsəsini ziyarət etmək bütün turistlərin arzusudur. Barokko üslubundakı daxili bəzəyinə - mehrablar, hasarlar, sütunlar və tağlara təxminən 350 kiloqram qızıl toz sərf edilən kilsə qotika üslubunda tikilib. Kilsənin tikintisi 1233-cü ildə başlayıb və yalnız 1400-cü ildə tamamlanıb.

18-ci əsrə məxsus Maşadu-de-Kaştru Yepiskop sarayı da turistləri heyran edir.

Malikanələr və inzibati binalarla əhatə olunan Azadlıq meydanı Portonun mərkəzi meydanıdır. Mərkəzdə Kral IV Pedronun abidəsi var. Axı Porto liberal müharibələr zamanı fərqlənən azadlıqsevər bir şəhər kimi tanınıb. 1908-ci ildə Lissabonda kralı və onun kiçik oğlunu Portodan olan sui-qəsdçilər qətlə yetiriblər.

## “FADO”NUN UNUDULMAZ MUSİQİSİ

Portonun şəhər mənzərəsi həqiqətən təsiredicidir. Şəhərin unikal atmosferini yaradan isə zəhmətkeş və mehriban insanlarıdır. Şəhərin müxtəlif yerlərində qovurulmuş şabalıd, suvenir, toxunma əl işləri satan yerli sakinlər həm də yaxşı həmsöhbətdirlər. Sahil boyunca portuqalların melanxolik xalq musiqisini - “Fado”nu dinləyirsən. Musiqiyə qağayıların nəğməsi də qarışır. Dənizçi sevgililərini və ya həyat yoldaşlarını dənizə göndərən və onların dönüşünü ümidlə gözləyən portuqal qadınların kədər və həsrətini ifadə edən musiqi adama qəribə hisslər yaşadır. Düşünürsən ki, bütün gözəlliklər bir yana, elə təkcə bu nəğməni dinləmək üçün Portoya qayıtmağa dəyər...










Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
1 FEVRAL ŞƏNBƏ 2025

# TRANSFER BAZARINDA DURĞUNLUQ



Klublar artıq birdəfəlik transferlər əvəzində icarə variantlarına üstünlük verirlər. Eyni zaman-da, azad agentlərə yönəlmələr artıb. Yaşlı oyunçular üçün isə ümumiyyətlə böyük məbləğlər ödənilmir.

Transfer dövrləri azarkeşlərin futbolda ən çox sevdiyi zaman kəsimidir. Üstəlik, son on ildə məbləğlər o qədər artıb ki, bu rəqabəti izləmək getdikcə daha maraqlı olur. Lakin son zamanlar İngiltərə klubları, ərəb milyarderlər və Səudiyyə Ərəbistanı klublarının "həddi aşması" UEFA, xüsusilə Premyer Liqa rəhbərliyinin maliyyə tənzimləmələrini sərtləşdirməsi ilə nəticələnib. Mütəxəssislər hesab edirlər ki, bu, yaxın gələcəkdə klubların transfer fəaliyyətində daha təmkinli davranmasına səbəb olacaq. Artıq indidən təsirlər hiss olunur. Bu qış transfer pəncərəsi zamanı böyük transferlər çox azdır. Gələcəkdə bunun davam edəcəyi gözlənilir.

### VƏZİYYƏT BU HƏDDƏ NECƏ ÇATDI?

Əsrin əvvəllərində futbol sənayesinə böyük maliyyə axını ilə transfer qiymətləri də artdı. Təməlini "Real Madrid"in qoyduğu irihəcmli oyunçu alışlarını daha sonra "Çelsi", "Mançester Siti", PSJ, Çin klubları və son olaraq Səudiyyə Ərəbistanı təmsilçiləri davam etdirdi. Beynəlxalq İdman Araşdırmaları Mərkəzinin (CIES) araşdırmasına görə, 2015-ci ildə transferlərə 5.88 milyard avro xərclənibsə, 2024-cü ildə bu rəqəm az qala iki dəfə çox - 10,98 milyard avro olub. Rekord 2023-cü ildə qeydə alınıb - 12,24 milyard avro.

Azarkeş və mütəxəssislərin bir çoxu rəqəmlərin şişirdildiyi qənaətindədir. Transfer bazarında şişirdilmiş rəqəmlər dedikdə isə ağla ilk olaraq Premyer Liqa gəlir. İngiltərə bazarı tam başqa bir dünyadır. Orada yarım mövsüm ortabab performans sərgiləyən hər hansı oyunçu üçün 50 milyon avronun ödənilməsi çoxdan adiləşib. İngiltərə klubları son on ildə transferlərə 23 milyard avro xərcləyiblər. Premyer Liqanın ən yaxın izləyicisi İtaliya A Seriyasında bu rəqəm on milyard avrodur. Bu, ingilislərin bazarda necə bir hegemonluq qurduğunun əyani göstəricisidir.

## ƏDALƏTLİ RƏQABƏT CƏHDLƏRİ

Yalnız pulu çox olanın qalib gəldiyi futbolda haqsız rəqabətin qarşısını almaq üçün UEFA maliyyə feyr-pleyi qaydalarının tətbiqinə başladı. Lakin bu qaydalar komandalara görə dəyişdiyi üçün ədalətin bərpası mümkün olmadı. UEFA-nın tədbirlərinin işə yaramaması liqaların özlərinin tənzimləmələr həyata keçirməsini labüdləşdirib. İngiltərə Premyer Liqası rəhbərliyi xərclərin həddən artıq qalxması səbəbindən maliyyə feyr-pleyi qaydalarına oxşayan nizamlamalarla vəziyyəti yoluna qoymağa çalışır. Bu, UEFA-nın qaydalarından daha sərtdir, sərhədləri daha dar və konkretdir. Qaydalara görə, klublar hər il gəlir və zərərlərini açıqlamaq məcburiyyətindədirlər. Ümumilikdə üç il ərzində maliyyə itkiləri maksimim 105 milyon funt-sterlinq ola bilər. Ən əsası, bu qaydalar yalnız kağız üzərində qalmır, tətbiqinə diqqət edilir. Məsələn, "Everton" zərərinin limitdən çox olması səbəbindən keçən mövsüm altı xalının silinməsi ilə üzləşmişdi. "Nottinqem Forest" transfer fəaliyyətindəki uyğunsuzluqlara görə dörd xalından olmuşdu. İndi də "Mançester Siti" və "Çelsi" ittihamlarla üz-üzədir. Hər iki klubun son illərdə çox böyük məbləğlər xərcləməsi diqqətləri onlara yönəldib. Görünür, bu qaydalar transfer bazarında böyük dəyişikliklərə səbəb olacaq.

## BAZAR SAKİTLƏŞİR

Son on ildə transferlərə ən çox pul xərcləyən on klubun altısı İngiltərə təmsilçiləridir. Lakin indi ingilis klubları əvvəlki qədər pul xərcləyə bilməyəcəklər. Bu isə ümumilikdə transfer bazarına təsir göstərəcək. Qaydaların sərt tətbiq olunmağa başlandığı 2023/24 mövsümündən etibarən xərclərdə azalma müşahidə olunur. Bu mövsüm iki milyarda yaxın maliyyə xərclənib. Üstəlik transfer əməliyyatlarının sayında da eniş var. Qış transfer pəncərəsi ümumiyyətlə sakit keçir. Xviça Kvaratsxeliyanın "Napoli"dən PSJ-yə, Omar Marmuşun "Ayntraxt"dan "Mançester Siti"yə keçidləri istisna olmaqla böyük ödənişli keçidlər, demək olar ki yoxdur. Bu gedişlə əvvəlki fantastik transfer əməliyyatlarına qayıdışın olmayacağı gözlənilir. Yəni, hələ uzun illər Neymarın 222 milyon avroya "Barselona"dan PSJ-yə transfer rekordu qırılmayacaq.

İngiltərə ilə yanaşı, digər liqalar da qaydaları sərtləşdirirlər. Məsələn, İspaniya La Liqasında tətbiq olunan tənzimləmələr "Barselona"nın Messinin gedişinə göz yumması ilə nəticələnmişdi. Katalonlar hələ də oyunçu qeydiyyatı prosesində problemlərlə üzləşirlər. Fransada son illərdə bir çox klub çətinlik yaşayır. "Bordo" müflis olub, "Lion" aşağı liqaya düşmək təhlükəsi ilə üz-üzədir. Xərclərin artdığı yeganə liqa İtaliya A Seriyasıdır. Lakin orada da iki il əvvəl transfer əməliyyatlarındakı uyğunsuzluqlar səbəbindən "Yuventus" cəzalara məruz qalmışdı. Klublar artıq birdəfəlik transferlər əvəzində icarə variantlarına üstünlük verirlər. Eyni zamanda, azad agentlərə yönəlmələr artıb. Hətta "Real Madrid" Mbbappe üçün PSJ-yə ödəniş etmək əvəzinə onu azad agent kimi cəlb etmək üçün səbirlə gözləməyi üstün tutmuşdu. Klublar artıq daha gənc oyunçulara və akademiya yetirmələrinə yönəlirlər. Yaşlı oyunçular üçün isə ümumiyyətlə böyük məbləğlər ödənməməsinə diqqət yetirilir. Çünki onlardan qazanc əldə etmək ehtimalı aşağıdır. İndi nəinki strategiyanı gənc istedadları üzə çıxarmaq üzərində quranlar, hətta böyük klublar da irihəcmli transferlərdənsə gənc oyunçuları tapıb daha aşağı məvaciblə cəlb etməyə yönəlirlər. Transfer strategiyaları dəyişməkdədir, xərclərdə böyük eniş müşahidə olunur və bu, yaxın gələcəkdə ümumən futbolu dəyişəcək.